QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 214 (5445) 23 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Qeyri-neft sektorunun inkişafı uğurlu islahatların nəticəsidir

*İlham Əliyev: "Azərbaycanda bundan sonra da qeyri-neft sektorunun inkişafı diqqət mərkəzində olacaq"*



Səh 2

**Leyla Əliyeva UNICEF-in regional direktoru ilə görüşüb**



3

**Ramiz Mehdiyev Moskvada MDB dövlətləri təhlükəsizlik şuraları katiblərinin beşinci görüşündə iştirak edib**



3

**Afinada "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı keçirilib**



4

**Ümummilli lider Heydər Əliyev siyasi xəttinin bəhrələri**



9

**Milli Məclisdə büdcə müzakirələri davam edir**



6

**Oleq Medunitsa: Brüssel forumunda terrorizmin və separatizmin dünya üçün təhlükəyə çevrilməsi barədə ciddi mesajlar verildi**



6

10

**Özbəkistanın review.uz portalı Azərbaycanın turizm sənayesindən yazıb**



11

**Azərbaycan xalqlar arasında dialoq və əməkdaşlığa töhfələrini verir**



16

**"Beşiktaş" Çempionlar Liqasının səkkizdəbir finalında!**



# Qeyri-neft sektorunun inkişafı uğurlu islahatların nəticəsidir

## *İlham Əliyev: "Azərbaycanda bundan sonra da qeyri-neft sektorunun inkişafı diqqət mərkəzində olacaq"*

***Azərbaycanda aparılan uğurlu və məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəlməsinə, neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da sürətli inkişafına, yoxsulluğun azalmasına əlverişli şərait yaradıb, əhalinin sosial müdafiəsini və maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasını təmin edib.***



Ölkə Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycanın ötən müddətdə əldə etdiyi iqtisadi göstəriciləri şərtləndirən bir çox amilləri, o cümlədən, ən önəmli məsələ olan qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məsələsini diqqətə çatdırıb. Dövlət başçısı bildirib ki, genişmiqyaslı islahatlar yolu qeyri-neft sektorunun ixrac qabiliyyətinin yüksəlməsi ilə valyuta daxilolmalarını artıra biləcək: "İlin doqquz ayı arxada qalır. Bu doqquz ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur. Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir".

Dövlət başçısı, onu da vurğulayıb ki, qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb: "Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Bu, son illərdə apardığımız siyasətin nəticəsidir. Çünki qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır".

Ölkə başçısı, müşavirədə onu da vurğulayıb ki, qeyri-neft sektorunun sənaye və kənd təsərrüfatı sahəsinin hərtərəfli inkişafına da toxunub: "Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artmışdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir. Bildiyiniz kimi, son illər kənd təsərrüfatında çox böyük inkişaf var və böyük investisiyalar qoyulur. Kənd təsərrüfatının hərtərəfli inkişafı dövlət prioritetidir və bu sahədə də nəticələr özünü göstərir. Kənd təsərrüfatı 2,8 faiz artmışdır".

Dövlət başçısı qeyd edib ki, xarici ticarət dövriyyəmiz 7 faiz artıb: "Burada da ixrac idxalı böyük fərqlə üstələyir. Hər bir inkişafın göstəricisi, o cümlədən, xarici ticarətin tarazlığından asılıdır. Bizdə isə ilin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Əlbəttə, bu, bizim həm iqtisadi uğurlarımızı əks etdirir, eyni zamanda, milli valyutamız manatın məzənnəsinə çox müsbət təsir göstərir. Valyuta bazarının tənzimlənməsi istiqamətində, əlbəttə ki, bu, çox böyük imkanlar açır. Eyni zamanda, bu, bizim uğurlu inkişafımızın təzahürüdür. İxracımız idxaldan 4,4 milyard dollardan çoxdur. Baxmayaraq, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu, bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin də artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün, əlbəttə ki, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, eyni zamanda, düzgün investisiya proqramımızın uğuru, əlbəttə, imkan verib ki, biz valyuta ehtiyatlarımızı artıraq".

### "Müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır"

Dövlət başçısı ilin 9 ayında Azərbaycanın valyuta ehtiyatlarının artdığını, hazırda bu rəqəm 42 milyard dollar səviyyəsində olduğunu bildirib: "İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli və dayanıqlı inkişaf haqqında düşünürük. Ona görə, bir daha qeyd etmək istəyirəm ki, valyuta ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir".

Prezident qeyd edib ki, bu gün Azərbaycan özünü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilib: "Müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi və bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur. Ona görə 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız hesab edirəm ki, 9 ayın ən uğurlu nəticələrindən biridir".

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu ilin doqquz ayında da ölkədə iqtisadi islahatlarla bağlı ciddi addımlar atılıb və sahibkarlara hərtərəfli şərait yaradılıb: "Strateji Yol xəritələrinin inkişafı təmin edilib, investisiya təşviqi mexanizmi işə düşüb. İndiyədək 200-dən artıq investisiya təşviqi sənədi verilib və bunun da nəticəsində Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb edilib. Bununla yanaşı, ölkədə ixracın təşviqi mexanizmi işə düşüb".

Bu ilin Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacağını deyən Prezident İlham Əliyev bildirib ki, 140 ölkə arasında rəqabətliliyi əks etdirən Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, ölkəmiz 37-ci pillədən 35-ə qalxıb və MDB məkanında liderliyini qoruyur.

Azərbaycan Prezidenti, eyni zamanda, bildirdi ki, ölkəmizin xarici borcunun çox aşağı səviyyədə olması və mövcud vəziyyət nəzərə alınaraq, xarici maliyyə bazarlarından lazımi qədər maliyyə resursları Azərbaycan bazarına cəlb ediləbilər.

### Vüqar Bayramov: "Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi prioritetdir"

İqtisadçı Vüqar Bayramov sözügedən məsələ ilə bağlı bildirib ki, Azərbaycan neft ölkəsi olsa da qeyri-neft sektorunun inkişaf etdirilməsi, eləcə də, neftdən asılılığın aradan qaldırılması hər zaman öndə duran məsələlərdəndir: "2017-ci ilin 9 ayının yekunlarını qiymətləndirən zaman birmənalı şəkildə bildirməliyik ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bütün iqtisadi göstəricilərdə artım var. Eyni zamanda, qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alınıb. Bu, çox vacib idi. Çünki 2017-ci il ölkə başçısı tərəfindən iqtisadi stabillik ili kimi elan edilmişdi. Bu ildə iqtisadi stabilliyin əldə edilməsi və 2014-cü ildən dünya bazarında neftin qiymətinin aşağı düşdüyü üçün dövlət gəlirlərimizin azalması səbəbindən yaranan çətinliklərin artıq 2017-ci ildə stabilliklə əvəz olunması, nəticə etibarilə 2018-ci ildə iqtisadi artımın, daha sonra sürətli iqtisadi artımın formalaşması baxımından vacib idi. 9 ayın yekunları göstərir ki, bu hədəflərə nail olmaq mümkün oldu. İqtisadiyyatın şaxələndirilməsi prioritet olmaqla yanaşı, eyni zamanda, ölkə iqtisadiyyatının daha dayanıqlı inkişafı baxımından vacibdir. Çünki biz neftdən asılılığı aradan qaldırdıqca daha dayanıqlı iqtisadi inkişafa və artıma nail ola bilirik. Azərbaycan neft ölkəsidir və Nazirlər Kabinetinin iclasında da qeyd olunduğu kimi, Azərbaycan neft satışından əldə etdiyi gəlirləri artırır və bu da bizim digər makroiqtisadi göstəricilərimizə təsir göstərir. Xatırlayırsınızsa, bir müddət öncə, "Yeni əsrin müqaviləsi" imzalandı. Cənab Prezident, xüsusilə, qeyd etdi ki, müqavilənin imzalanmasına baxmayaraq, Azərbaycanda qeyri-neft sektorunda bu günə qədər islahatlar aparılıb və bu, gələcəkdə də davam etdiriləcək".

### Qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alınıb

V.Bayramlı qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alındığını bildirib: "Əslində, bu, kifayət qədər vacib bir məqamdır. Çünki Azərbaycan üçün aqrar sektor vacibdir. Bu sahədə 2,8 faiz artım müşahidə olunub. Eyni zamanda, sənayeləşmə ölkə üçün prioritetdir. Xatırlayırsınızsa, ötən günlərdə Davos İqtisadi Forumunun rəqabətə davamlılıq indeksini müzakirə edərkən, demişdik ki, maraqlı məqam həmin hesabatda Azərbaycanın dünyanın ən innovativ 33 ölkədən biri olmasıdır. Bu, sualınızla birbaşa əlaqəli olan bir məsələdir. Çünki sənayeləşmə innovasiya tələb edir. Bu baxımdan, sənayeləşmə innovativ iqtisadiyyatın qurulması baxımından vacibdir. Neftdən gələn gəlirlərin insan kapitalına çevrilməsi olduqca önəmlidir. Bu da innovasiya tələb edir. 2017-ci ilin 9 ayının yekunları və sözügedən hesabatda da, qeyd olunduğu kimi, qeyri-neft sənayesində də artımları müşahidə edirik. Çünki sənayeləşmə ilə bağlı kifayət qədər təşviqedici tədbirlər həyata keçirilir".

İqtsadçı onu da vurğulayıb ki, ölkə Prezidenti sahibkarlığın inkişafının dövlətimizin qarşısında dayanan əsas məqsəd olduğunu bildirib. Sahibkarlığın inkişafı baxımından, hal-hazırda Prezidentin qarşıya qoyduğu məsələ idxal-ixrac prosesinin şəffaflaşdırılması, ölkəyə xarici investisiyanın, xüsusilə, qeyri-neft sektoruna xarici kapitalın qoyulmasıdır: "Dünya praktikasını nəzərə alaraq, qeyd etmək istəyirik ki, yalnız məhsulların qeydiyyatında elektronlaşma olarsa və bu sistem ölkədə şəffaflıq, keyfiyyətli xidmət reputasiyasını özündə birləşdirən "ASAN xidmət"ə verilərsə, qarşıdakı müddətdə müəyyən nəticələr almaq olar. Eyni zamanda, regionlarda fəaliyyət göstərən sahibkarlar lisenziyanı 50% güzəştlə alacaqlar. Bütün bunları özündə formalaşdıracaq amillər sahibkarların xərclərində azalmalara səbəb olacaq. Bu isə, regionlarda lisenziya və xüsusi icazə tələb edən sahibkarlıq fəaliyyətinin dəstəklənməsi baxımından olduqca vacib addımdır. Yuxarıda sadalananlara müvafiq olaraq idxal-ixrac inhisarçılığının ləğvi və elektronlaşması sahibkarın xərclərini azaldacaq və bazara daha ucuz məhsulların çıxarılmasına şərait yaradacaqdır. Beləliklə, ölkəmizin qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına enerji gəlirlərindən asılılığın aradan qaldırılmasına ünvanlanan islahatlara təkan verildi. Bu prioritetlərin reallaşması birmənalı şəkildə ölkəmizdə diversifikasiya edilmiş iqtisadi inkişafa nail olmağa imkan yaratmaqla məşğulluq sferasında, istehlak və valyuta bazarında stabilliyin formalaşmasına səbəb olacaq".

Beləliklə, qeyd olunan fikirlərin təhlili nəticəsinə görə neftdən asılılıq amili ortadan qaldırılıb və regionlarda yaradılan çoxsaylı müəssisələrin fəaliyyəti buna sübut kimi göstərilə bilər. Həmçinin, yerli məhsulların qeyri-neft sektoru üzərə istehsalı və ixracı da belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır ki, Azərbaycan istər regionda, istərsə də beynəlxalq aləmdə öz liderlik mövqeyini yüksəldəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Leyla Əliyeva UNICEF-in regional direktoru ilə görüşüb





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ölkəmizdə səfərdə olan UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Əfşan Xan ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva UNICEF tərəfindən bütün dünyada uşaqların vəziyyətinin yaxşılaşdırılması naminə aparılan fəaliyyəti yüksək qiymətləndirərək, uşaqların rifahı, sağlamlığı və təhsilinin təmin edilməsinin gələcəyimiz üçün ən dəyərli sərmayə olduğunu vurğulayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti bu sahədə Azərbaycanda son illər böyük irəliləyişlərin əldə edildiyini bildirib, bununla bağlı işlərin davam etdiriləcəyinə və daha da genişləndiriləcəyinə əminliyini qeyd edib. Uşaqların ətraf mühitin mühafizəsi sahəsində təhsil almalarının və maarifləndirilməsinin əhəmiyyətinə toxunan Leyla Əliyeva IDEA İctimai Birliyi tərəfindən son 6 ildə uşaqların ekoloji biliklərinin artırılması istiqamətində həyata keçirilən çoxsaylı layihələr, o cümlədən eko laboratoriyalar, düşərgələr, kurslar və nəşrlər haqqında ətraflı məlumat verib.

UNICEF-in regional direktoru Əfşan Xan, öz növbəsində, ətraf mühit və davamlı inkişaf məsələləri üzrə uşaqların məlumatlandırılmasına yönəlmiş fəal səylərinə görə Leyla Əliyevaya öz minnətdarlığını bildirib. O, UNICEF-in iqlim dəyişikliyi, davamlılıq və digər ekoloji mövzuların tədris proqramına daxil edilməsində maraqlı olduğunu, bu barədə IDEA-nın fəaliyyətinin yüksək dəyərləndirdiyini qeyd edib.

Görüş zamanı tərəflər arasında uşaqların ekoloji təhsili üzrə mümkün əməkdaşlıq perspektivləri müzakirə edilib, eləcə də sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların sosial müdafiəsi, reabilitasiyası və təhsili məsələləri üzrə fikir mübadiləsi aparılıb.



# Ramiz Mehdiyev Moskvada MDB dövlətləri təhlükəsizlik şuraları katiblərinin beşinci görüşündə iştirak edib



***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev noyabrın 22-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin beşinci görüşündə iştirak edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə MDB məkanında radikal dini cərəyanların yayılmasının qarşısının alınması məsələləri, habelə Əfqanıstan İslam Respublikasında vəziyyət və Orta Asiya regionu dövlətlərinin təhlükəsizliyinin təmin edilməsi tədbirləri müzakirə edilib, beynəlxalq terrorçuluğa qarşı mübarizənin bəzi aspektləri ilə bağlı məruzələr dinlənilib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tədbirdə məruzə ilə çıxış edib. Çıxışda dini radikalizmin, ekstremizmin və terrorçuluğun qarşısının alınması sahəsində Azərbaycan Respublikasının müsbət təcrübəsi, o cümlədən müvafiq qanunvericiliyin təkmilləşdirilməsi, ölkəmizin hüquq mühafizə orqanları və xüsusi xidmətlərinin səmərəli fəaliyyəti barədə ətraflı məlumat verilib. Tədbir çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, həmçinin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və katibin müavini Rəşid Nurqaliyev, habelə Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə təhlükəsizlik şuraları xətti üzrə əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib, həmçinin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının Aparatı ilə 2018-2019-cu illər üçün Əməkdaşlıq Planı imzalanıb.

# Ərdoğan: “Dağlıq Qarabağ məsələsi bizim də problemimizdir”



Prezident Rəcəb Tayyib Ərdoğan Suriya məsələsi ilə bağlı Soçi şəhərinə edəcəyi səfər zamanı Rusiya Prezidenti Vladimir Putinlə Dağlıq Qarabağ problemini də müzakirə edəcəyini bildirib. AZƏRTAC xəbər verir ki, bu məsələ ilə bağlı jurnalistlərin suallarını cavablandıran Prezident Rəcəb Tayyib Ərdoğan bundan əvvəlki görüşdə də Putinlə Dağlıq Qarabağ məsələsi ətrafında müzakirələr apardığını deyib. Türkiyənin dövlət başçısı vurğulayıb ki, Putin bu məsələdə əlindən gələni əsirgəməyəcəyini bildirib. “Bu məsələ ilə bağlı qarşıdakı görüşə də müzakirələrimiz olacaq, çünki Dağlıq Qarabağ məsələsi bizim də problemimizdir”, - deyə Rəcəb Tayyib Ərdoğan qeyd edib.

# Ölkə üzrə 186 min tondan çox pambıq tədarük olunub

Noyabrın 22-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 186 min 774,14 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən gün 1265,77 ton pambıq tədarük olunub. Xatırladaq ki, 2016-cı ildə, ümumilikdə, 88 min 596 ton pambıq yığılmışdı.



# Afinada "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı keçirilib

***Noyabrın 22-də Yunanıstanın paytaxtı Afina şəhərində "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı keçirilib. AZƏRTAC xəbər verir ki, yüksək səviyyəli toplantı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Marianna V.Vardinoyannis" Fondu ilə əməkdaşlığı çərçivəsində VI Qlobal Bakı Forumuna hazırlıq məqsədilə təşkil edilib.***



Toplantıda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Avropa İttifaqı və Aralıq dənizi hövzəsi ölkələrinin nüfuzlu dövlət və siyasi xadimləri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri - Latviyanın sabiq prezidentləri Vayra Vike-Freyberqa, Valdis Zatlers, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov, UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis, ictimai-siyasi xadimlər, Avropadakı Azərbaycan diaspor təşkilatlarının rəhbərləri, elm xadimləri və KİV əməkdaşlarından ibarət 200 nəfərə yaxın nümayəndə iştirak edib. Beynəlxalq tədbirdə Aralıq dənizi hövzəsindəki humanitar böhranların qarşısının alınması üçün ideya və təşəbbüsləri bölüşmək, miqrasiya, inteqrasiya, milli kimlik və multikulturalizm, xüsusilə də separatizm və öz müqəddəratını təyin etmək məsələləri müzakirə olunub.

UNESCO-nun xoşməramlı səfiri, "Marianna V.Vardinoyannis" Fondunun rəhbəri Marianna VARDİNOYANNİS toplantını açaraq bildirdi ki, Yunanıstan ikinci dəfədir bu yüksək səviyyəli tədbirə ev sahibliyi edir. Birinci tədbirdə olduğu kimi, bu toplantıda da ali səviyyəli qonaqlar, siyasətçilər, ictimai-siyasi xadimlər iştirak edirlər.

"Marianna V.Vardinoyannis" Fondu haqqında məlumat verən natiq bildirdi ki, Fond Avro-Aralıq dənizi tərəfdaşlığına daxil olan ölkələrdə baş verən qeyri-qanuni miqrant axınları, iqlim dəyişikliyi və digər problemlərin həllinə töhfələr verib.

Marianna Vardinoyannis Fondun müasir dünyada ağır şəraitdə yaşayan miqrant qadınlara, uşaqlara, qaçqınların inteqrasiyasına, onların təhsil, səhiyyə problemlərinin həllinə, insan hüquqlarına, inklüzivliyə, sivilizasiyalar arasında sülhün təmin olunmasına göstərdiyi köməyi diqqətə çatdırdı.



Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-FREYBERQA çıxış edərək baş ofisi Bakıda yerləşən Mərkəzin adından qonaqları salamladı. O bildirdi ki, bu toplantı da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi önəmli tədbirlər sırasındadır. O, Avro-Aralıq dənizi tərəfdaşlığı ölkələrinin tarix boyu ciddi çağırışlara məruz qaldığını dedi.

Sabiq Prezident, həmçinin dedi ki, İkinci Dünya müharibəsindən sonra yaradılan BMT-nin insan hüquqlarının qorunmasında böyük rolu olsa da, təəssüf ki, bu, sülhün tam bərqərar olması üçün kifayət deyil. Bu gün dünyanın müxtəlif bölgələrində və xüsusilə Suriyadakı insanlar münaqişələrdən əziyyət çəkirlər. "Yarım əsrdir ki, dövlətlər öz hökumətlərinə güvənmirlər. Qaçqın böhranı sosializm dövründə də olmuşdu və bu gün də Yunanıstanla bərabər bir çox ölkələrdə baş verir. Sadə insanlar əziyyət çəkirlər, evlərini itirirlər, aclığa, xəstəliyə məruz qalırlar", - deyə Vayra Vike-Freyberqa bildirdi.

Yunanıstanın birinci xanımı Sissi PAVLOPOULOU çıxış edərək "Marianna V.Vardinoyannis" Fondunun töhfələrindən danışdı. O, Fonda Avro-Aralıq dənizi ölkələrinin mövcud problemlərinin həllinə göstərdiyi dəstəyə görə təşəkkür etdi.

Yunanıstanın xarici işlər nazirinin səlahiyyətlərini icra edən Georq KATROUQALOS qeyd etdi ki, bu cür yüksək səviyyəli toplantının keçirilməsinin böyük təşəbbüs olduğunu vurğulayaraq dedi: "Şiddətli münaqişələri, Liviya, Suriya problemlərini dialoq və əməkdaşlıq yolu ilə həll etməliyik. Biz Afrika və Asiya ölkələrinin iqtisadiyyatına kömək etməliyik, bunun üçün əməkdaşlığı gücləndirməliyik". O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dahi şairin adını daşıdığını diqqətə çatdırdı və böyük mütəfəkkir Nizami Gəncəvinin insanpərvərlik və sülh ideyalarının bu gün Fondun fəaliyyətində əksini tapdığını qeyd etdi. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV toplantıda çıxış etdi.

Beynəlxalq tədbirin iştirakçılarını salamlayan Əli Həsənov Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və "Marianna V.Vardinoyannis" Fondunun tərəfdaşlığının ölkələrimiz arasındakı əlaqələrin və bütün regionun güclənməsində mühüm rol oynadığını vurğulayaraq dedi ki, Yüksək Səviyyəli Afina Toplantısı müasir dünyanı narahat edən çox aktual mövzuya həsr olunub və Azərbaycan hökuməti adından bir sıra fikirlərimizi diqqətinizə çatdırmaq istəyirəm.

Avropa İttifaqı, Şimali Afrika, Orta Şərq və Cənub-Şərqi Avropa ölkələrini birləşdirən Aralıq dənizi hövzəsində beynəlxalq terrorizmin və etnik separatizm kimi təhlükəli meyillərin doğurduğu böhranın həlli yollarının axtarılması ilə bağlı müzakirələrin aparılması mühüm əhəmiyyət daşıyır. Qaçqın və miqrant problemlərinin, insan alveri və qaçaqmalçılığın, siyasi və iqtisadi sabitliyə, nəqliyyat-enerji təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasındakı çətinliklər hamımızı narahat edir. Müşahidələr göstərir ki, bu təhdidlərin içərisində etnik separatizm və onun mənfi təzahürləri xüsusi yer tutur.

Prezidentin köməkçisi vurğuladı ki, müasir dövrdə dünyada etnik separatizm meyillərinin güclənməsi regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına, bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşamasına mənfi təsir göstərən mühüm amillərdən biridir. Hazırda dünyada 220 milyon nəfərdən çox əhalini və 12,7 milyon kvadratkilometr ərazini əhatə edən 50-dən çox əsas etnik separatizm ocağı mövcuddur. Etnik separatizmin nəticəsində yaranan münaqişələrin 20-dən çoxu hərbi toqquşmalarla müşayiət olunur. Etnik münaqişələrin yayılma coğrafiyasının demək olar ki, dünyanın əksər bölgələrini əhatə etdiyini bildirən Əli Həsənov soyuq müharibənin başa çatmasından sonra keçmiş SSRİ məkanında etnik separatizm meyillərinin yeni dalğasının meydana gəldiyini diqqətə çatdırdı. O qeyd etdi ki, Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Osetiya, Moldovada Dnestryanı münaqişələr regionun sabitliyini hər an poza biləcək potensial təhlükə mənbəyinə çevrildi. Bu münaqişələr beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasına, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşı ciddi təhdidlərin yaranmasına gətirib çıxarır.

Bu gün BMT, ATƏT və Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatların etnik separatizmə qarşı qətiyyətli mübarizə aparmasının vacib məsələlərdən biri olduğunu söyləyən Əli Həsənov bildirdi ki, hazırda beynəlxalq münasibətlər sistemində hökm sürən "ikili standartlar" siyasəti etnik separatçılığa qarşı qətiyyətli və prinsipial şəkildə mübarizə aparılmasına maneçilik törədir. Bəzi hallarda aparıcı beynəlxalq təşkilatlar etnik separatçılığın aradan qaldırılmasını nəzərdə tutan, təsirli mübarizə metodlarını və cinayətkarların cəzalandırılması mexanizmini özündə ehtiva edən hüquqi normalara bütün dünya dövlətlərinin əməl edib-etmədiyi məsələsinə biganə yanaşırlar. Bu isə BMT, ATƏT və Avropa Şurası kimi təşkilatların obyektivliyinin və prinsipiallığının üzərinə kölgə salır.

**Ardı Səh. 5**

# Afinada "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı keçirilib





Əvvəli-Səh-4

Azərbaycan Prezidentinin köməkçisi dedi: "Mənim ölkəm 1993-cü ildən etibarən Avropa İttifaqı (Aİ) ilə münasibətlərdə maraqlı olduğunu bəyan edib və bu qurumla müxtəlif sahələrdə əlaqələr qurmağa başlayıb. "Qonşuluq siyasəti" və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində, o cümlədən vətəndaş cəmiyyəti quruculuğu prosesində Azərbaycanın gördüyü işlər Aİ tərəfindən yüksək qiymətləndirilib. Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi ilə bağlı Azərbaycanla Aİ-nin geosiyasi maraqları üst-üstə düşür və bu qurumu təmsil edən böyük transmilli korporasiyalar bölgədə həyata keçirilən transmilli layihələrdə yaxından iştirak edirlər.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsi Azərbaycan ilə Avropa İttifaqı arasındakı strateji tərəfdaşlığın sayəsində mümkün olub. Azərbaycanın Xəzər hövzəsinin enerji resurslarının birgə istismarı və alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracı sahəsində apardığı siyasət, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərin müasir tələblərə uyğun yenidən qurulması Aİ tərəfindən dəstəklənir.

2007-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış tərəfdaşlıq müqaviləsi Cənub Qaz Dəhlizinin icrası istiqamətində mühüm addımlardan biri olub. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Trans-Anadolu qaz kəməri (TANAP) və Trans-Adriatik qaz boru kəməri (TAP) kimi layihələr Aİ-nin lazımi dəstəyini qazanıb və Avropa Komissiyasının ortaq maraqlara xidmət edən prioritet enerji təhlükəsizliyi layihələri sırasına daxil edilib. Xəzər hövzəsinin və Orta Şərqin zəngin enerji ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı Azərbaycanın gördüyü işlər Aİ tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan yalnız Avropa İttifaqının enerji təminatı və təhlükəsizliyi baxımından, habelə "Qonşuluq siyasəti"nin əsas tərəfdaşlarından biri kimi deyil, həmçinin dünyanın müxtəlif bölgələrində - Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı, təhlükəsiz hava dəhlizinin təqdim olunması istiqamətində fəaliyyəti ilə Qərbin etibarlı tərəfdaşı hesab olunur.

Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqlar prosesi davam edir. İnanıram ki, bu sənədin imzalanması tərəflər arasında siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər sahələrdə genişmiqyaslı əməkdaşlığın möhkəmlənməsi üçün əlverişli imkanlar yaradacaq".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi hələ də həllini tapmamış problemlərin Azərbaycanın Avropa İttifaqı ilə yüksək səviyyədə tərəfdaşlıq münasibətlərinin inkişaf etməsinə əngəl törətdiyini vurğulayan Əli Həsənov qeyd etdi ki, münaqişə ilə bağlı BMT-nin, o cümlədən Aİ-nin müvafiq qətnamələrinin tələblərinə baxmayaq, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir. Biz bu qənaətdəyik ki, Aİ-nin işğalçı dövlətə qarşı sərt mövqedən çıxış etməsi bu qurumla Azərbaycan arasındakı strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirən növbəti mühüm amillərdən biri ola bilər. Çıxışının sonunda Əli Həsənov Yüksək Səviyyəli Toplantının işinə bir daha uğurlar arzuladı.

Sonra Akropol Muzeyinin direktoru, professor Dmitris PANTEMALİS çıxış edərək bildirdi ki, tədbirin keçirildiyi muzey hakimiyyət uğrunda gedən çox hadisələrə və güc oyunlarına şahidlik edib. Bu güc oyunları insanların xoşbəxtliyinə və bədbəxtliyinə səbəb olub. O dedi: "Bu tədbirin Akropol Muzeyində keçirilməsinin rəmzi mənası ondan ibarətdir ki, insanların sağ qalmaları və əmin-amanlıq içində yaşamaları üçün sivilizasiyalararası dialoq inkişaf etdirilməlidir".

Daha sonra Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sabiq Sədri Mladen İVANİÇ çıxış etdi. O, real tərəfdaşlığın vacibliyini diqqətə çatdırdı və Aİ üçün ən böyük problemin təhlükəsizlik, iqtisadi böhran, miqrant böhranı olduğunu bildirdi. Sabiq Sədr iqtisadi tərəqqinin, ərəb böhranının həllinin, davamlı sabitliyin, insan hüquqlarının təmin olunması, demokratiyanın inkişafı üçün real tərəfdaşlığın vacibliyini diqqətə çatdırdı. Bildirdi ki, bunun üçün beynəlxalq ictimaiyyət müzakirələrə açıq olmalıdır.

Açılış çıxışlarından sonra Yüksək Səviyyəli Toplantı işini "Miqrasiya problemi xüsusi Avro-Aralıq dənizi problemi kimi" mövzusunda panel sessiyası ilə davam etdirdi.

Slovakiyanın sabiq Baş naziri İveta RADİÇOVANIN moderatorluğu ilə keçirilən paneldə "Miqrant axınları necə idarə oluna bilər? "Balanslaşdırılmış miqrasiyaya nail olmaq üçün hansı ölçülər götürülməlidir?" sualları ətrafında fikir mübadiləsi aparıldı.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət ÇƏTİN sessiyada çıxış edərək dedi ki, miqrasiyanın bugünkü vəziyyəti ciddi narahatlıq doğurur. Bu gün baş verən miqrant böhranı müharibələr, münaqişələr və iqlim dəyişikliyinin nəticəsidir. "Biz bu gün davamlı problemlərlə üzləşirik. Milyonlarla insanın əziyyət çəkməsi davam edir. Biz nə etməliyik? İlk növbədə, bu insanlara kömək etmək üçün öz səylərimizi birləşdirməliyik. Hər bir səyi dəyərləndirməliyik. Miqrantlarla bağlı problemləri həll etməklə yanaşı, onların cəmiyyətə inteqrasiyasını təmin etməliyik. Bu məqsədlərə nail olmaq üçün hərtərəfli fəaliyyət göstərməliyik", - deyə H.Çətin əlavə etdi.

Sabiq nazir dedi ki, Türkiyənin miqrasiya böhranı mövzusunda Avropa İttifaqı ilə əməkdaşlığı davam edir. Miqrant axını nəticəsində insanların üzləşdiyi məhrumiyyətlərdən, yüksək insan itkisindən danışan H.Çətin bildirdi ki, Türkiyə öz ərazisində 3,3 milyon miqrantı yerləşdirib. Türkiyə bu insanların həyat şəraitinin yaxşılaşdırılması üçün bütün səyləri ni ortaya qoyur, onların cəmiyyətdə iştirakını təmin etməyə çalışır.

Keçmiş xarici işlər naziri, həmçinin çıxışında qeyd etdi ki, bu gün bütün dünyada Avropa dəyərləri deyilən bir məfhum dillər əzbəridir. Lakin biz soruşmalıyıq: Avropa dəyərləri həqiqətən də dəyərlərdirmi? Müasir dövrümüzdə bu dəyərlərlə bağlı ciddi problemlər mövcuddur və bu dəyərlərin qorunması üçün kifayət qədər fəaliyyət göstərilmir. Bu gün Azərbaycan Avropada ən böyük qaçqın və məcburi köçkün problemi ilə üzləşən ölkədir. Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün var. Azərbaycanın ərazilərinin bir hissəsi Ermənistan tərəfindən işğal edilib. Dünya ictimaiyyəti, eləcə də Avropa dəyərlərini təbliğ edən ölkələr bu problemin həllinə lazımi diqqəti göstərmirlər.

BMT baş katibinin sabiq müavini Noelin HEYZER çıxışında miqrasiya probleminin ilk səbəbi kimi davam edən uzunmüddətli münaqişələri göstərdi. O qeyd etdi ki, dövlətlər bu problemlərin həlli üçün öz üzərlərinə öhdəliklər götürməlidirlər, çünki bizim cəmiyyətlər bu qədər genişmiqyaslı miqrant axınına hazır deyil. Asiyadan Avropaya üz tutan miqrantların münaqişəyə cəlb olunan ölkələrdən gəldiyini deyən natiq miqrant axını ilə bağlı qlobal səviyyədə yeni çərçivələrin formalaşdırılmasının vacibliyini söylədi.

Yunanıstanın Pireus şəhərinin meri Yannis MORALİS bildirdi ki, bu panelin onun ölkəsində də aktual olan miqrasiya probleminə həsr olunması çox yaxşı haldır. Bu gün miqrant böhranının həllinə mane olan millətçilik, populizm kimi anlayışların və radikal meyillərin ölkələr üçün təhlükəli olduğunu qeyd edən mer cəmiyyətdə, ilk növbədə, bu sahədə əməkdaşlığın gücləndirilməsinin vacib olduğunu vurğuladı. O, həm miqrantlar, həm də miqrantları qəbul edən cəmiyyətlər üçün hazırda mövcud olmayan yeni təhlükəsizlik mühiti yaradılmalı olduğunu diqqətə çatdırdı.

Macarıstanın keçmiş Baş naziri Peter MEDQYEŞŞİ isə qeyd etdi ki, miqrasiya problemi heç də həllolunmaz bir problem deyil. Bunun üçün uzunmüddətli müzakirələrə, səbrə, çox işləməyə ehtiyac var. Biz sərhədlərin mühafizəsini gücləndirməliyik. Həqiqətən də qorunmağa ehtiyacı olan miqrantları qəbul etməliyik.

Natiq qeyd etdi ki, İkinci Dünya müharibəsindən sonra qəbul edilmiş Şuman planına bənzər yeni bir plana ehtiyac var. Belə ki, qəbul olunan miqrantlar üçün, ilk növbədə, infrastruktur yaxşılaşdırılmalıdır, onlar normal təhsil, səhiyyə, əmək bazarına çıxışla təmin olunmalıdırlar. Bu istiqamətdə Avropanın üzərinə öhdəlik düşür ki, yeni təşəbbüslərlə çıxış etsin. O, hər il Bakıda keçirilən Qlobal forumların bu cür aktual problemlərə böyük töhfə verdiyini diqqətə çatdırdı.

Rasizmə Qarşı Avropa Şəhərləri Koalisiyasının prezidenti Benedetto ZAKKİROLİ bildirdi ki, miqrant axını bu gün təkcə Avropada deyil, bütün dünyada mövcuddur. Lakin Avropada bu problem daha çox mənfi kontekstdə şərh olunur, ksenofob və radikal meyilli siyasi qüvvələr bu mövzudan məharətlə yararlanırlar.

Avropaya gələn qaçqınların Avropa əhalisinin heç bir faizini təşkil etmədiyini bildirən B.Zakkiroli bir çox Avropa ölkələrində və ümumən cəmiyyətdə qaçqınlara, onların problemlərinə və Avropaya üz tutmalarına səbəb olan köklü problemlərə arzuolunan diqqətin göstərilmədiyini qeyd etdi. O, Türkiyə və Livan kimi ölkələrin qaçqın qəbulunda bütün Avropadan daha çox işlər gördüyünü diqqətə çatdıraraq, yerli əhalinin sayı ilə nisbətdə hər iki ölkənin Avropa ilə müqayisədə daha çox qaçqına qucaq açdığını vurğuladı. Koalisiyanın rəhbəri çıxışının sonunda qeyd etdi ki, insanların müxtəlif səbəblərdən yerdəyişməsi və miqrant axını əbədidir və hər zaman mövcud olacaq. Eyni zamanda, bu axınlar təkcə siyasi səbəblərdən baş vermir. Müharibələrlə yanaşı, iqlim dəyişiklikləri və iqtisadi böhranlar miqrant axınına ciddi təsir göstərir. Vacibdir ki, bu axınların yaranma səbəbi və düzgün istiqamətlənməsi ilə bağlı beynəlxalq ictimaiyyət vaxtında doğru qərarlar qəbul edə bilsin.

Sonra mövzu ilə bağlı müzakirələr aparıldı, suallar cavablandırıldı. Toplantı işini noyabrın 23-də başa çatdıracaq.

*Elgün Niftəli*
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Afina***

# Milli Məclisdə büdcə müzakirələri davam edir



Noyabrın 22-də Milli Məclisin sədri Oqtay Əsədovun sədrliyi ilə parlamentdə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi davam etdirilib.

AZƏRTAC xəbər verir ki, gündəlikdəki məsələ barədə çıxış edən Bahar Muradova, Musa Qasımlı, Yevda Abramov, Kamilə Əliyeva, Şahin İsmayılov, Eldar Quliyev, Jalə Əliyeva, Əhliman Əmiraslanov, Çingiz Qənizadə, Azər Badamov, Elçin Quliyev, Fuad Muradov, Eldar İbrahimov, Azay Quliyev, Şəmsəddin Hacıyev 2018-ci ilin büdcə layihəsini yüksək dəyərləndirdilər. Layihə peşəkarlıqla hazırlanmış mükəmməl sənəd adlandırıldı. Qeyd olundu ki, gələn ilin dövlət büdcəsi ölkə daxilindəki mövcud reallıqlar, maliyyə-iqtisadi sahədə dünya miqyasında gedən proseslər nəzərə alınmaqla tərtib olunmuş sosialyönümlü, uğurlu və həssas büdcədir. Deputatlar Maliyyə Nazirliyi başda olmaqla 2018-ci ilin büdcə zərfinə daxil olan sənədləri yüksək səviyyədə hazırlamağa nail olmuş hökumət qurumlarına təşəkkürlərini bildirdilər.

Çıxışlarda vurğulandı ki, Azərbaycan Prezidentinin yürütdüyü çevik və uzaqgörən siyasət sayəsində ölkəmizdə irimiqyaslı işlər görülüb, neftdən asılılıq aradan qaldırılıb, qeyri-neft sektoru sürətlə inkişaf edir, bölgələrdəki sosial-iqtisadi tərəqqinin müsbət nəticələri göz önündədir. Bu yaxınlarda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın iqtisadi qüdrətini artıracaq, beynəlxalq aləmdə müsbət imicini daha da möhkəmləndirəcək. Ölkədə yaradılan azad sahibkarlıq zonaları və sənaye parkları mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatında ciddi islahatlar aparılıb, qida təhlükəsizliyi istiqamətində böyük işlər görülüb, ərzaq təminatı məsələsində xaricdən asılılıq azalıb. Həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq gələn il 33 rayon özünümaliyyələşdirmə imkanına malik olacaq.

Müzakirə zamanı deputatlar son illər ölkəmizdə qazanılmış uğurlarla yanaşı, təmsil etdikləri bölgələrdəki çatışmazlıqları da hökumət üzvlərinin diqqətinə çatdırdılar. Bir sıra kənd rayonlarında yolların abadlaşdırılması və qaz çəkilməsi, gənclər evləri tikintisinin davam etdirilməsi, əhalinin sağlamlığını təmin etmək məqsədilə səhiyyə sahəsində zərurət duyulan avadanlığın alınması və digər səhiyyə tədbirlərinin icrası üçün büdcədən ələvə maliyyənin ayrılması, tələbələrin yataqxana ilə təminatına və təhsil haqqı ödənişi ilə bağlı problemə diqqət yetirilməsi, keyfiyyətli film yaradıcılığı üçün lazımi məbləğdə vəsait ayrılması, QHT-lərin fəaliyyətinə dövlətin maliyyə dəstəyinin artırılması və digər mühüm məqamlar önə çəkildi.

Milli Məclis sədrinin müavini Bahar Muradova diqqəti insan kapitalının inkişafına dair məsələlərə yönəltdi. O, ölkədə hakimlərin və vəkillərin sayının artırılmasının vacibliyini önə çəkdi, müxtəlif obyektlərdə məskunlaşmış qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin evlə təminatı zərurətindən bəhs etdi.

Fasilədən sonra iclasda Ziyafət Əsgərov, Valeh Ələsgərov, Rəşad Mahmudov, Əflatun Amaşov, Tahir Kərimli, Rafiq Məmmədhəsənov, Aydın Hüseynov, Sahib Alıyev, Ağalar Vəliyev, Flora Qasımova çıxış etdilər. Çıxışlarda büdcə layihəsi dayanıqlı inkişafa əsaslanmış təmkinli maliyyə sənədi adlandırıldı. Seçicilərinin qayğılarını önə çəkən deputatlar ölkədə dəmir yolu şəbəkəsinin genişləndirilməsi və yenidən qurulması, məktəb təmiri və tikintisi, səhiyyənin problemləri, ucqar rayonlarda qazlaşdırmanın vacibliyi və s. kimi məsələlərə toxundular.

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov qeyd etdi ki, 2018-ci il üçün dövlət büdcəmiz dünya bazar iqtisadiyyatı konyukturası və iqtisadi risklər nəzərə alınmaqla tərtib olunub, çox təmkinlidir. Müxtəlif rayonlar üzrə ayrı-ayrı sahələri balanslaşdırma, proporsiya yaratma çox çətin işdir. Hökumətimiz bu işin öhdəsindən bacarıqla gəlib. Milli Məclis sədrinin müavini Valeh Ələsgərov gələn ilin dövlət büdcəsində neftin qiymətinin 1 barrel üçün 45 ABŞ dolları məbləğində hesablanmasına dair fikirlərini bölüşdü. O, son illər neftin qiyməti ilə bağlı dünya praktikasında mövcud olan vəziyyətdən danışdı, Azərbaycan hökumətinin proqnozunun əsaslandırılmış və düzgün proqnoz olduğunu vurğuladı.

Müzakirələrə yekun vuran Milli Məclisin sədri Oqtay Əsədov bildirdi ki, komitə iclaslarında 37, plenar iclaslarda 44 deputat 2018-ci ilin dövlət büdcəsinin layihəsinə dair fikirlərini açıqlayıb, təkliflərini diqqətə çatdırıb. Digər deputatlar da çıxışlarını yazılı olaraq katibliyə təqdim edə bilərlər.

Sonra iclasda maliyyə naziri Samir Şərifov, Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Milli Məclisdə səslənmiş fikirlərə münasibət bildirdilər. Maliyyə naziri parlamentdə aparılan səmərəli müzakirələrə, aktual təkliflərə görə Milli Məclisin rəhbərliyinə və üzvlərinə təşəkkürünü çatdırdı. İclasın yekununda Milli Məclisin sədri Oqtay Əsədov bildirdi ki, noyabrın 23-də plenar iclasda büdcə zərfinə daxil olan digər məsələlər müzakirə olunacaq.

# Brüsseldə keçirilən Beynəlxalq Forum separatizmin nə qədər ciddi təhlükə olduğuna bir daha aydınlıq gətirir



"Bu gün dünyanın müxtəlif bölgələrində separatizm meyillərinin güclənməsi beynəlxalq sülhə və təhlükəsizliyə ciddi əngəl törədir. Artıq uzun illərdir ki, Azərbaycan da bu bəladan əziyyət çəkir. 25 ildən artıqdır ki, torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən zəbt edilib, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, terrorist və separatçı qüvvələr işğalçılıq siyasətlərini hələ də davam etdirirlər. Bütün bunlara baxmayaraq, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində mühüm addımlar atılır, xaricdə uğurlu təbliğat kampaniyası aparılır. Bu baxımdan, noyabrın 20-də Belçikanın paytaxtı Brüssel şəhərində keçirilən "Separatizm beynəlxalq sülhə və təhlükəsizliyə təhdiddir" mövzusundakı Beynəlxalq Forumu, xüsusi olaraq, vurğulamaq lazımdır." Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi cənab Əli Həsənovun forumdakı dərin məzmunlu çıxışı zamanı bir daha separatizmin beynəlxalq sülhə və təhlükəsizliyə böyük təhdid olduğu beynəlxalq birliyin nəzərinə çatdırılıb: "Bu gün qarşıda duran əsas hədəf dünyada hökm sürən separatizmə qarşı birgə mübarizədir. Bu mübarizə isə, o zaman effektli olar ki, dünya dövlətləri, xüsusilə də, nüfuzlu beynəlxalq təşkilatlar bu sahədə qəti mövqe və güclü iradə ortaya qoysunlar. Cənab Əli Həsənov da, haqlı olaraq, bildirib ki, mövcud münaqişələr beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasına, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşı ciddi təhdidlərin yaranmasına səbəb olur. BMT, ATƏT və Avropa Şurası kimi beynəlxalq təşkilatların etnik separatizmə qarşı qətiyyətli mübarizə aparması vacibdir. Əgər bu, mümkün olmasa, etnik separatizm dünyanı millətlərarası münaqişələr meydanına çevirə bilər. Hesab edirəm ki, Cənab Əli Həsənovun bu fikirləri separatizmin nə qədər ciddi təhlükə olduğuna bir daha aydınlıq gətirir."

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, forumda diqqət yetirilən əsas məsələlərdən biri də beynəlxalq münasibətlər sistemində hökm sürən "ikili standartlar" siyasətidir: "Təəssüf ki, bu gün dünyada ayrı-ayrı dövlətlərə və baş verən hadisələrə qarşı ikili standartlar prizmasından yanaşma mövcuddur. Bu amil isə, ədalət prinsipinin tam olaraq bərqərar olmasına mane olur, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasına gətirib çıxarır. Elə götürək Dağlıq Qarabağ münaqişəsini. BMT, ATƏT və Avropa Şurası kimi nüfuzlu təşkilatlar münaqişənin həlli ilə bağlı sənədlər qəbul etsələr də, problemin çözülməsi istiqamətində ciddi addımlar atılmır, bəzən işğalçı ilə işğala məruz qalana eyni münasibət göstərilir."

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, forumda müzakirə olunan əsas məsələlərdən biri də Azərbaycan-Avropa İttifaqı əlaqələri olub: "Azərbaycan və Avropa İttifaqının qarşılıqlı münasibətləri ilə bağlı aparılan müzakirələr əlaqələrin gələcək perspektivlərinin yüksək səviyyədə olduğunu göstərir. Cənab Əli Həsənov haqlı olaraq vurğulayıb ki, Azərbaycan yalnız Avropa İttifaqının enerji təminatı və təhlükəsizliyi baxımından, habelə, "Qonşuluq siyasəti"nin əsas tərəfdaşlarından biri kimi deyil, həmçinin, dünyanın müxtəlif bölgələrində - Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı, təhlükəsiz hava dəhlizinin təqdim olunması istiqamətində fəaliyyəti ilə Qərbin etibarlı tərəfdaşı hesab olunur. Hesab edirəm ki, Avropanın mərkəzində bu cür forumların təşkili Azərbaycan həqiqətlərinin təbliğində mühüm əhəmiyyət kəsb edir."

# Oleq Medunitsa: Brüssel forumunda terrorizmin və separatizmin dünya üçün təhlükəyə çevrilməsi barədə ciddi mesajlar verildi

***Belçikanın paytaxtı Brüsseldə "Separatizm beynəlxalq sülhə və təhlükəsizliyə təhdiddir" mövzusunda keçirilən beynəlxalq forumda terrorizmin və separatizmin dünya üçün təhlükəyə çevrilməsi barədə ciddi mesajlar verildi. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında forumda iştirak edən Ukrayna Ali Radasının deputatı Oleq Medunitsa deyib.***

Azərbaycanın da separatizmə və işğala məruz qaldığını xatırladan ukraynalı deputat bildirib ki, illərdir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll olunmaması terrorizm və etnik separatizmin coğrafiyasının genişlənməsinə təsir edib. O vurğulayıb ki, bu gün dünyada baş verən münaqişələrin həlli məsələsində ikili standartlar mövcuddur. Bu amil də beynəlxalq separatizmin yayılmasına təkan verir.

"Təkcə keçmiş SSRİ ölkələri olan Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovada mövcud separatizm və münaqişələrə qarşı effektli mübarizə aparılsaydı, indi digər dövlətlərdə də yeni münaqişə ocaqları yaranmazdı. Beynəlxalq hüququn təməl prinsiplərinə əməl edilməməsi dünya səhnəsində



təhlükəli proseslərə ayaq açıb", - deyə O.Medunitsa əlavə edib. Ukraynalı deputat vurğulayıb ki, dünya dövlətləri və beynəlxalq təşkilatlar işğalçılığa, separatizmə qarşı effektli mübarizə aparmalıdırlar.

# Bahar Muradova: İnsan kapitalının inkişafı onun müxtəlif sahələrdə hüquqlarının qorunmasının təmin olunmasını tələb edir



"Milli Məclisin komitələrində büdcə müzakirələri zamanı bir çox məsələlərə diqqət yetirildi. Son olaraq 5 komitənin birgə iclasında müzakirələrdə əsasən insan kapitalı və onun inkişafına dair məsələlər diqqət mərkəzində oldu. Biz bu sahədə dövlətin gördüyü işlər, vəzifələr və perspektivlər barədə ciddi müzakirələr apardıq. Ümumi vəziyyət yaxşıdır, inkişaf tendensiyası müşahidə olunur. Amma bu sahədə həm köhnədən qalmış, həm də inkişafın doğurduğu problemlər var. Bu problemləri aradan qaldırmalıyıq və onun büdcə təminatı olmalıdır". Bu fikirləri Milli Məclisin Sədr müavini Bahar Muradova parlamentin dünən keçirilən iclasında 2018-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri zamanı deyib.

B.Muradova bildirib ki, insan kapitalının inkişafı onun müxtəlif sahələrdə hüquqlarının qorunmasının təmin olunmasını tələb edir. Onun fikrincə, bu olacaqsa, hökumət olaraq qarşıya qoyulan məsələlərin öhdəsindən gələ bildiyimizi deyə bilərik: "Dolayısı ilə insan hüquqlarına təsir göstərən bir sıra amillər var ki, bunlar xüsusilə hüquq-mühafizə, təhlükəsizlik və məhkəmə orqanlarının fəaliyyətinə bağlıdır. İşin çoxluğu, hakimlərin, vəkilərin və müstəntiqlərin fəaliyyəti zamanı üzləşdikləri çətinliklər dolayısı ilə insan hüquqlarına mənfi təsirlərini göstərir. Tərəfdarıyam ki, hakimlərin sayı artmalı və bunun da büdcə təminatı vacibdir. Vəkillik sahəsində də problem çox ciddidir. Bu yaxınlarda qanunvericiyə etdiyimiz dəyişiklik özü də bu sahədə ciddi addımların atılmasını tələb edir".

Vitse-spiker qeyd edib ki, məhkəmələrdə vəkil rolunu oynayan nümayəndələrin fəaliyyətini tənzimləmək üçün qanunvericilik sahəsində atılan addımlar vəkillərin sayının artırılmasının və təminatının müəyyənləşdirilməsi işini vacib edir: "Burada vətəndaşların məqsədli şəkildə hüquqlarının pozulmasından söhbət getmir. İşlərin yaxşı araşdırılmaması, müdafiənin səviyyəli şəkildə təmin olunmaması, istintaqın gedişində bir çox məsələlərin aydınlaşdırmağın mümkün olmaması məhkəmə baxışı zamanı prosedurların pozulması hallarına gətirib çıxarır. Təbii ki, nəticəsindən, verilən hökmlərdən, aparılan istintaqdan narazı qalan vətəndaşlar öz hüquqlarının pozulduğu qənaətinə gəlirlər və hüquqlarının qorunması üçün müvafiq qurumlara müraciət edirlər. Parlamentin İnsan hüquqları komitəsinə gələn belə müraciətlərin sayı çoxdur. Bunu nəzərə alaraq deyə bilərəm ki, hüquq mühafizə, təhlükəsizlik və məhkəmə orqanlarının real və insan hüquqlarının qorunmasını təmin edəcək şəkildə həyata keçirilməsini təmin edən islahatları və dəyişiklikləri etməyə ciddi ehtiyac var".

B.Muradova həmçinin qaçqın və məcburi köçkünlərin problemlərinə də diqqət çəkib. Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlərin görüldüyünü deyən vitse-spikerin sözlərinə görə, buna baxmayaraq, problemlər də var. "Onlar da ölkəmizin vətəndaşlarıdır və harda, kimə məxsus mülkiyyətdə yaşamasından asılı olmayaraq evlə təmin olunmasını istəyirlər. Xüsusilə qəzalı evlərdə yaşayanlar köçürülməlidir və bunu tezliklə etmək lazımdır. Həmçinin, ayrı-ayrı evlərdə, özəlləşdirilmiş müəssisələrin həyətində, köməkçi qeyri-yaşayış məntəqələrində məskulaşan köçkünlər var ki, onların vəziyyəti həqiqətən də ağırdır. Onlar ilk növbədə köçürələsi insanların siyahısında olmasalar da vəziyyətləri acınacaqlıdır. Bu istiqamətdə də diferensial yanaşmaya ehtiyac var. Onların uçotu aparılmalıdır. Məsələn, Ağdamdan, Zəngilandan olan köçkünlər var ki, şəhid ailələridir. Onların ümumi qaydada ev növbəsinə götürülməsi mümkün olmur. Bu insanlar hazırda yaşadıqları rayonlarda siyahıya alınmırlar, öz rayonları da yoxdur. Qaçqın-köçkün təbəqəsi içərisində şəhid ailələrinin ümumi siyahısı hazırlanmalı, onların harda məskunlaşmasından asılı olmayaraq ilk olaraq evlə təmin olunmalı təbəqələr kimi qəbul edilməlidirlər"- deyə, viste-spiker vurğulayıb.

B.Muradova bütövlükdə 2018-ci ilin dövlət büdcəsini təqdir edib və millət vəkillərini bu qanun layihəsinə səs verməyə çağırıb.

# "Brüsseldə keçirilən separatizmlə bağlı forum Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə yadda qaldı"

***Belçikanın paytaxtı Brüsseldə "Separatizm beynəlxalq sülhə və təhlükəsizliyə təhdiddir" mövzusunda keçirilən Beynəlxalq Forumda Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənovun çıxışı, hər şeydən öncə, hazırda demək olar ki, bütün dünya üçün aktual olan bir məsələnin, terrorizm və separatizmin nə qədər təhlükəli olduğunu aktuallaşdırmaqla, həm də Azərbaycanın bu bəladan uzun illərdir nə qədər əziyyət çəkdiyinin diqqətə çatdırılması ilə yadda qaldı.***



Bunu Trendə Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

H.Babaoğlu bildirib ki, forumun "Yeni dünya düzənində separatizm dalğası: Problemi necə həll etməli? Separatizmə məruz qalmış ölkələrin təcrübəsi" adlanan ilk panelində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq separatizm məsələlərinə toxunan Əli Həsənov beynəlxalq münasibətlərin hazırkı vəziyyətində terrorizmin və etnik separatçılığın az qala bütün dünya ölkələrinin ərazi bütövlüyünü təhdid etdiyini bildirdi: "Hindistandan başlamış Şimali Avropaya, Avroatlantikadan Latın Amerikasına qədər olduqca geniş bir geosiyasi məkanda çoxsaylı dövlətlərin belə problemlə üz-üzə qaldığını xatırladan natiq vaxtında Azərbaycanda baş qaldıran etnik separatizmə qarşı beynəlxalq təşkilatların biganə qalmasının, problemə ikili standart siyasətilə yanaşmalarının bu bəlanın geniş yayılmasında olan rolunu önə çəkdi. Postsovet məkanında az qala kütləvi şəkildə baş qaldıran etnik separatizmin Avropanın dərinliklərinə qədər irəliləməsində bu problemin vaxtında həll edilməsi üçün yetərli cəhdlərin göstərilməməsi səbəblərdən biri kimi diqqətə çatdırıldı. Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna kimi ölkələrdə baş qaldıran etnik separatizmə qarşı vaxtında qətiyyətli mübarizə aparılsaydı, sonrakı mərhələdə Balkanlarda, Şimali-Qərbi Avropada və nəhayət, İspaniyada separatçılıq bu həddə gəlib çatmazdı. Separatizm və terrorizm - biri digərini bəsləyən iki radikal vasitə kimi bu gün milli dövlətlərin dağılmasına qədər gedib çıxan dəhşətli dağıdıcı proseslərə səbəb olur. Terror hazırda hibrid müharibə vasitəsinə çevrilməklə, müsəlman Şərqində və Şimali Afrikada çoxsaylı dövlətlərin funksional dövlət aparatını dağıdıb, tarixdə görünməmiş dəhşətlərə və miqrasiyaya səbəb olub. Bu gün isə vaxtilə Avropadakı bəzi mərkəzlər tərəfindən dəstəklənərək, üçüncü ölkələrə ixrac edilən terrorizm və separatizm Avropanın qapısını döyməyə başlayıb. Əli Həsənov haqlı olaraq qeyd etdi ki, bu problemə qarşı mübarizə birgə səylər tələb edir. Əgər beynəlxalq hüquq tərəfindən dəstəklənən dövlətlərin ərazi bütövlüyü prinsipi sözdə deyil, əməldə müdafiə olunarsa, o zaman separatizmə qarşı effektiv mübarizə aparmaq olar. Hətta qısa müddətdə nəticələr də əldə etmək olar".

Deputat bildirib ki, Azərbaycan artıq uzun illərdir ki, separatizmdən və terrordan əziyyət çəkir: "Ərazilərimizin 20 faizindən çoxu Ermənistan tərəfindən işğal edilib. Problemin həlli üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsinin vaxtı çoxdan çatıb. Ona görə də, hazırkı mərhələ belə problemlərin həlli mərhələsi olmalıdır. Əks-təqdirdə, bu gün əgər dünyada 50-dən çox belə problem mövcuddursa, gələcəkdə yuzlərlə ola bilər. Çünki dünyanın hər yerində, xüsusilə, Avropada potensial separatizm ocaqları həddindən artıq çoxdur. Əgər onların hamısı birdən aktiv fazaya keçərsə, onda hazırkı dünya nizamından əsər-əlamət qalmaz. Ən çox əziyyət çəkən isə elə terrorizmə və separatizmə ən çox dəstək verən ölkələr olar. Ona görə də, belə ölkələr imperialist ambisiyaları bir kənara qoyaraq, dağıdıcı separatizmə qarşı ciddi mübarizə aparmalıdırlar. Məhz Azərbaycanın bu cür qlobal problemi aktuallaşdıraraq, dünya ictimaiyyətinin diqqətini buna cəlb etməsi xüsusi qiymətləndirilməli bir hadisədir. Düşünürəm ki, ölkəmizin təşəbbüsü ilə başladılan bu beynəlxalq proses dostlarımızın və tərəfdaşlarımızın sayını artırmaqla, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə öz töhfəsini vermiş olacaq".

Qeyd edək ki, noyabrın 20-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycanın Diaspora İş üzrə Dövlət Komitəsinin və Avropa Azərbaycanlıları Konqresinin təşkilati dəstəyi ilə "Separatizmin beynəlxalq sülhə və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda beynəlxalq forum keçirilib. Tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov, Azərbaycanın Belçikadakı səfirliyinin nümayəndələri, Diasporla İş üzrə Dövlət Komitəsi sədri Nazim İbrahimov, Azərbaycanın Avropada fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərləri, həmçinin, bir çox nüfuzlu beynəlxalq ekspertlər, siyasi xadimlər, sabiq ölkə prezidentləri, baş nazirlər və parlament sədrləri iştirak ediblər.

# Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Naxçıvan Dövlət Universitetində olub

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera və nümayəndəliyin müdafiə işləri üzrə koordinatoru Byorn Oliver Ram Naxçıvan Dövlət Universitetində (NDU) olublar. NDU-nun mətbuat şöbəsindən AZƏRTAC-a bildirilib ki, universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Seymur Talıbov qonaqları salamlayaraq, ali təhsil ocağının strukturu və fəaliyyəti haqqında məlumat verib.



Qeyd olunub ki, NDU ən son texnologiyalarla təchiz edilib. Universitet yüksək dövlət qayğısı ilə əhatə olunub və burada distant, eləcə də elektron təhsilin inkişafı üçün lazımi şərait mövcuddur. Universitetin beynəlxalq əlaqələrindən danışan prorektor ali təhsil ocağının "Erasmus+", "Mövlana" mübadilə proqramlarına qoşulduğunu və proqramlar çərçivəsində həyata keçirilən müxtəlif beynəlxalq layihələrdə uğurla təmsil olunduğunu diqqətə çatdırıb. Bütün bunlar isə öz növbəsində dünya universitetləri ilə müəllim-tələbə mobilliyinin həyata keçirilməsinə geniş imkanlar açır.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera muxtar respublikada ikinci dəfə olmağından məmnunluğunu ifadə edib. Qonaq BQXK-nin ümumi iş prinsipi, o cümlədən qurumun Azərbaycan nümayəndəliyinin fəaliyyəti barədə danışıb. Vurğulanıb ki, Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərən qurumun başlıca məqsədi cəbhəyanı bölgələrdə yaşayan, müharibədən əziyyət çəkən mülki vətəndaşlara humanitar yardımın göstərilməsindən ibarətdir. Nümayəndəliyin rəhbəri universitetlə əməkdaşlıq etməkdə maraqlı olduqlarını və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini bildirib.

# Ümummilli lider Heydər Əliyev siyasi xəttinin bəhrələri



## Ordubad rayonunun Üstüpü kəndində geniş quruculuq işləri aparılıb

1992-ci il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyası ötən 25 ildə ölkəmizdə əsas hərəkətverici siyasi təşkilata çevrilib. Partiyanın proqramında nəzərdə tutulan tədbirlərin uğurlu icrası Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarıb. Yeni Azərbaycan Partiyasının təməlində duran inkişaf, sabitlik və yüksək rifah prinsiplərinin muxtar respublikada əməli surətdə həyata keçirilməsi nəticəsində sosial-iqtisadi inkişaf təmin edilib, genişmiqyaslı quruculuq işlərinin əsası qoyulub, yaşayış məntəqələri yeni görkəm alıb, ən ucqar dağ kəndlərində belə müasir infrastruktur yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 21-də - Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümündə Ordubad rayonunun Üstüpü kəndində yeni sosial obyektlər istifadəyə verilib.





Üstüpü kənd tam orta məktəbinin yeni binasının açılışı olub

Noyabrın 21-də Üstüpü kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsib.

Bildirilib ki, 340 yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 2-si elektron lövhəli olmaqla 16 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır. Məktəbin kitabxana fondunda 1852-si dərslik və 3050-si bədii ədəbiyyat olmaqla 4900-dən çox kitab vardır. Kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Kompüter otağında isə 19 kompüter quraşdırılıb və internetə qoşulub. Məktəbdə hərbi dərslərin tədrisi üçün bütün imkanlar yaradılıb.

Məktəbdə tədrisin səviyyəsi ilə tanışlıq zamanı qeyd olundu ki, 2017-2018-ci tədris ilində Üstüpü kənd tam orta məktəbində birinci sinfə 14 şagird qəbul olunub. Məktəbəqədər hazırlıq qrupunda isə 13 şagird vardır.

Məktəbəqədər hazırlıq qrupunun şagirdi, 5 yaşlı Bəkir Nəcəfli Ali Məclisin Sədrinə minnətdarlıq edərək dedi: "Hörmətli Sədr! Kəndimizə gəlişiniz biz uşaqları sevindirir. Çünki bizim üçün müasir məktəb binası istifadəyə verilir. Qürur duyuruq ki, gələcəkdə bu məktəbdə təhsil alacağıq. Söz veririk ki, müstəqil Azərbaycan üçün layiqli övladlar olacağıq. Yaşasın Müstəqil Azərbaycan!"

Elektron lövhəli sinifdə muxtar respublikanın 220 təhsil müəssisəsi ilə Heydər Əliyev Muzeyi arasında "Heydər Əliyev yeni Azərbaycanın qurucusudur" mövzusunda keçirilən distant dərs izlənilib.

Ali Məclisin Sədri müəllimlərlə görüşüb, onları yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək deyib: Bu gün ölkəmizin həyatında əlamətdar gündür. Çünki Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü tamam olur. Eyni zamanda Üstüpü kəndinin həyatında da əlamətdar gündür. Aparılan geniş quruculuq işlərindən sonra kənddə məktəb binası, həkim ambulatoriyası, müasir yol, kənd və xidmət mərkəzləri istifadəyə verilir.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü və yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Məktəb işi hər bir ölkə üçün ən vacib sahədir. Ümummilli liderimiz Heydər Əliyev tövsiyə edirdi ki, "Ölkənin təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır". Yeni məktəb binalarının tikilməsi, müasir tədris şəraitinin yaradılması bu gün qarşıda duran əsas vəzifədir. Üstüpü kənd tam orta məktəbi üçün də müasir tədris şəraiti yaradılıb. Bütün bunlar imkan verəcəkdir ki, məktəbi bitirən gənclər ölkəmizdə və dünyanın qabaqcıl universitetlərində ali təhsillərini davam etdirə bilsinlər. Müasir tədris imkanlarına malik məktəb binalarının istifadəyə verilməsi, müəllim tələbkarlığı və şagird çalışqanlığı təhsildə uğur qazanmağın başlıca şərtləridir. Ötən tədris ilində Üstüpü kənd tam orta məktəbini bitirən məzunlardan 4-ü ali məktəblərə, 2-si orta ixtisas məktəbinə, 1-i isə Heydər Əliyev adına Hərbi liseyə qəbul olunub. Bütün bunlar məktəbdə tədrisin düzgün təşkilinin nəticəsidir. Kollektiv yaradılan şəraitdən istifadə edərək nailiyyətləri daha da artırmalı, məktəbdə gələcəyimizin təminatçıları olan əsl vətəndaşlar yetişdirilməlidir. Məktəbi bitirən hər bir gənc özünə həyat yolu seçməli, bir peşə öyrənməlidir. Peşə sahibi olan gənc həyatda uğur qazanmaqla yanaşı, həm də ölkəsi üçün yararlı vətəndaş olur.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edib, onlara tədrisdə uğurlar arzulayıb.

Məktəbin müəllimi Səmirə Əliyeva minnətdarlıq edərək deyib: Naxçıvanda təhsilə göstərilən diqqət bütün müəllimlər tərəfindən razılıqla qarşılanır. Bu tədris ilində Payız, Qarahəsənli, Ələkli və bu gün də Üstüpü kəndində müasir məktəb binasının istifadəyə verilməsi etibarlı gələcəyimizin təminatına hesablanıb. Həmçinin elektron lövhəli, kompüterlə təchiz olunan, ən müasir tədris şəraiti yaradılan məktəb binasının istifadəyə verilməsi kollektivdə bayram sevinci yaradıb. Müəllimlər bu qayğının müqabilində daha səylə çalışacaq, milli köklərə bağlı, geniş dünyagörüşlü, savadlı və vətənpərvər gənclərin yetişdirilməsində bilik və bacarıqlarını əsirgəməyəcəklər.

Məzrə kəndindən olan uşaqların məktəbə rahat gəlişini təmin etmək üçün məktəbə yeni xidməti avtomobil təqdim olunub. Məktəb binasının həyətində açıq idman qurğuları istifadəyə verilib, yaşıllıqlar salınıb.

## Üstüpü kənd həkim ambulatoriyası istifadəyə verilib

Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi yaxşılaşdırılır. Müasir tibb ocaqlarının istifadəyə verilməsi, xüsusilə kəndlərdə tikilən həkim ambulatoriyaları insanların hərtərəfli səhiyyə xidməti ilə təmin olunmasına imkan verir.

Noyabrın 21-də Üstüpü Kənd Həkim ambulatoriyasının açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, tibbi xidmətin təşkili ilə maraqlanıb. Məlumat verilib ki, ambulatoriyada 8 otaq - baş həkim, stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, mama, qeydiyyat otağı və aptek yerləşir. Həkim ambulatoriyasında stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, mikroskop və digər tibbi avadanlıqlar qoyulub, fizioterapiya kabinəsi yaradılıb. Kabinədə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafin əritmə qazanı və "SOLYUKS" lampası vardır. Müasir tibbi avadanlıqlar səhiyyə xidmətinin nümunəvi təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri kənddə tibbi xidmətin təşkili və insanların sağlamlığının qorunması sahəsində görülən işlərin əhəmiyyətini qeyd edib, ambulatoriyaların və feldşer-mama məntəqələrinin ixtisaslı kadrlarla təminatı, peyvəndlərin vaxtlı-vaxtında vurulması, hamilə qadınlara patronaj xidmətinin göstərilməsi, gigiyenik qaydalara əməl edilməsi və səhiyyə maarifi işinin təşkili ilə bağlı tapşırıqlar verib.

## Üstüpü Kənd Mərkəzinin açılışı olub

Həmin gün Üstüpüdə yeni kənd mərkəzinin də açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, 3 mərtəbəli kənd mərkəzində dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılıb, iş otaqları istifadəyə verilib. Binada rabitə evi, polis sahə məntəqəsi, kitabxana, baytarlıq məntəqəsi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, statistika otağı və 74 yerlik zal yerləşir. Kitabxanada 7462 kitab vardır. Onlardan 1405-i latın, 6057-si isə kiril əlifbası ilə çap olunmuş ədəbiyyatlardır. Fond yeni nəşrlər hesabına daim zənginləşdirilir.

Yeni Azərbaycan Partiyası Üstüpü kənd ərazi ilk təşkilatının 158 üzvü vardır. Hazırda

# Ümummilli lider Heydər Əliyev siyasi xəttinin bəhrələri










partiya üzvlərindən 39-u gənc, 67-si isə qadınlardır. Rabitə evində quraşdırılan 384 yerlik ATS keyfiyyətli rabitə xidmətinin göstərilməsinə və sürətli internetdən istifadəyə imkan verir. Hazırda kənddə 317 telefon və 48 internet istifadəçisi vardır. Burada yeni poçt bölməsi də yaradılıb, dövri mətbuatın, internet və danışıq kartlarının satışı təşkil olunub, POS-terminal qoyulub, ödənişlərin qəbulu təmin edilib.

## Üstüpü və Düylün kəndlərində yeni xidmət obyektləri fəaliyyətə başlayıb

Üstüpü və Düylün kəndlərində əhalinin rahatlığının təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər çərçivəsində yeni xidmət mərkəzləri də tikilib. Məlumat verilib ki, xidmət mərkəzlərində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, anbar, ərzaq və təsərrüfat malları mağazaları, dərzi yerləşir. Yeni mərkəzlərdə 10 nəfər işlə təmin olunub.

Ali Məclisin Sədri xidmət mərkəzlərində ailə təsərrüfatlarında istehsal olunan müxtəlif məhsulların satışına üstünlük verilməsini tapşırıb. Xidmət mərkəzində işlə təmin olunan dərzi Mərdan Məmmədov sadə peşə adamları üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

## Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu istifadəyə verilib

Muxtar respublikanın dağ kəndlərində müasir yol infrastrukturunun yaradılması yaşayış məntəqələrinin inkişafına mühüm töhfədir. İnsanların və nəqliyyat vasitələrinin rahat hərəkətinin təmin olunması həm də kəndlərin turizm potensialını xeyli artırıb. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq noyabrın 21-də Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsib, görülən tikinti işləri ilə maraqlanıb. Bildirilib ki, yenidən qurulan yolun uzunluğu 20 kilometrdir. Yol genişləndirilərək asfalt örtük salınıb. Yolun üzərində 217 su keçidi qoyulub, 701 metr istinad divarı tikilib, 8 körpü əsaslı təmir edilib, 1300 metr qoruyucu çəpər, 3512 metr beton kanal çəkilib. Bundan başqa Üstüpü kəndində 3500 metr yol hamarlanaraq qum-çınqıl qatı verilib, 2 su keçidi qoyulub, 267 metr sahilbərkitmə işləri aparılıb. Yolboyu yol-hərəkət nişanları quraşdırılıb, kəndlərdə piyadaların təhlükəsiz hərəkəti üçün səkilər salınıb. Yolda görülən işlərlə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşüb.

Ali Məclisin Sədri kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi və Üstüpünün abad kəndlərin sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək deyib: Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər bütün yaşayış məntəqələrinin, eləcə də kəndlərin simasını dəyişir, insanların yaşayış səviyyəsini yaxşılaşdırır. Hər bir yaşayış məntəqəsinin abadlaşması ümumilikdə ölkəmizin inkişafı deməkdir. Bütün bu tədbirlər ölkəmizdə uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin bəhrələridir. Bu gün Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsinin 25-ci ildönümüdür. Ötən dövrdə Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafını təmin etmişdir. Üstüpü kəndində görülən quruculuq işləri, istifadəyə verilən yeni sosial obyektlər də bu inkişafın bir kəndin timsalında göstəricisidir.

Ali Məclisin Sədri deyib: Bu gün Üstüpü kəndi tamamilə müasirləşmişdir. Kənddə müasir tədrisin tələblərinə uyğun məktəb binası, dövlət qurumlarının səmərəli fəaliyyəti üçün kənd mərkəzi, insanların tələbatını ödəyəcək həkim ambulatoriyası, xidmət mərkəzi qurulub, kənd sürətli internetlə təmin edilib. 20 kilometrlik Üstüpü kənd avtomobil yolu Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Prezidentin Ehtiyat Fondundan ayrılmış 6,1 milyon manat vəsaitin hesabına çəkilib.

Ali Məclisin Sədri kənddə tikinti işlərinin keyfiyyətlə aparıldığını bildirib, bu münasibətlə muxtar respublikada tikinti sahəsində çalışanlara təşəkkür edib.

Qeyd olunub ki, kənddə yaradılan bu şərait insanların rahat yaşayışına xidmət edir. Vaxtilə kəndin yol problemləri vardı. İnsanlar mərkəzlə əlaqə saxlamaqda çətinliklər çəkirdi. Uşaqlar lazımi şəraiti olmayan məktəbdə təhsil alırdı. Xidmət sahələri səmərəli fəaliyyət göstərmirdi. Lakin bu gün qeyd olunan problemlərin hər biri həll olunub, kənddə yeni xidmət sahələri yaradılıb, iş yerləri açılıb. Sakinlər də yaradılan bu şəraitdən səmərəli istifadə edərək ölkəmizin inkişafına töhfə verməli, torpaqlar əkilməli, tikilənlər-qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri ölkəmizin siyasi və ictimai həyatında mühüm yeri olan Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 25-ci ildönümü və kənddə aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edib.

Kənd ağsaqqalı Məhəmməd Əsədov çıxış edərək deyib: Bu il aparılan quruculuq işləri Üstüpü kəndinə yenilik və inkişaf bəxş edib. Kəndə yol çəkilib, məktəb binası tikilib, sakinlərin rahat yaşaması üçün bütün tədbirlər görülüb. Üstüpü bu gün qəsəbəyə çevrilib. Kəndin siması kökündən dəyişilib. Sakinlər bu işlərlə fəxr edir. Məhəmməd Əsədov bütün kənd sakinləri adından minnətdarlıq edib.

Üstüpü kəndinin yetirməsi, ziyalı Yusif Babanlı minnətdarlıq edərək deyib: Üstüpü kəndində yeni sosial obyektlərin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümündə istifadəyə verilməsi kəndin həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafını təmin edib. Bu gün ölkə Prezidentinin rəhbərliyi altında Azərbaycanın nail olduğu inkişafın ən bariz nüməsi müasir Naxçıvandır. Fəxr edirik ki, muxtar respublikada aparılan geniş quruculuq işləri, əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlər Üstüpü kəndini də əhatə edib. Ali Məclisin Sədri kənd sakinləri ilə xatirə şəkli çəkdirib.

X X X

Üstüpü kəndində abadlıq işləri də görülüb, 1200 metr fiber-optik kabel, 2700 metr rabitə, 1770 metr elektrik və 550 metrlik qaz xətti çəkilib, 9350 metr qaz xəttində təmir-bərpa işləri aparılıb. Həmçinin kənddə əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədi ilə 2000 metr müxtəlif diametrli içməli su xətti də çəkilib.

# “The Washington Times” qəzetində Xankəndidəki qanunsuz rejimə yardım göstərilməsi barədə məqalə dərc edilib

**“The Washington Times” qəzetində “Jewish News Service” nəşrinin sabiq baş redaktoru Ceykob Kamarasın “Dağlıq Qarabağ ucbatından mənəvi oriyentirlərin itirilməsi” sərlövhəli məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, bu materialda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionundakı qanunsuz rejimə maliyyə yardımı göstərilməsinin hüquqa zidd olması və Amerika hökuməti tərəfindən belə hərəkətlərin ABŞ-ın rəsmi xarici siyasətinə uyğun gəlməməsindən bəhs edilir.

Müəllif yazır ki, Amerika tərəfindən başqa dövlətlərə maliyyə yardımı məsələsinə baxıldıqda çox vaxt bu yardımın dollar şəklində ifadəsi deyil, bu və ya digər ölkəyə yaxud region ölkələrinə yardımın mənası xüsusi əhəmiyyət kəsb edir. Kamaras qeyd edir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisi olan, Ermənistan tərəfindən qeyri-qanuni işğal edilmiş Dağlıq Qarabağa yardım məsələsi buna əyani nümunədir.

Cari ilin may ayında Ermənistan ciddi zərbə aldı: Prezident Trampın 2018-ci ilin maliyyə ili üçün təklif etdiyi büdcədə Ermənistana yardım təxminən 70 faiz azaldılaraq 22,4 milyon dollardan 6,8 milyon dollara endirildi.

Bununla bərabər, elə həmin büdcədə Azərbaycana yardım düz 90 faiz azaldılaraq 1 milyon dollara endirildi. Xarici yardımın kəskin şəkildə azaldılması Tramp administrasiyasının fərqləndirici cəhətidir və nəzəri baxımdan heç bir ölkə bunu öz ünvanına qəbul etməməlidir, çünki ABŞ hökumətinin fəaliyyətində bir sıra sektorlarda xərclər azaldılır. Lakin müəllifin fikrincə ABŞ administrasiyası Avrasiyaya xərcləri azaltmaqla, Ermənistan tərəfindən ərazisi işğal edilmiş Azərbaycanı çətin vəziyyətə salmaqla, əslində işğalçı dövlət olan Ermənistana yardımın azaldılması ilə müqayisədə Azərbaycana yardımın daha çox azaldılması nəticəsində öz mənəvi oriyentirlərini itirmiş olur.

Kamaras Dağlıq Qarabağ münaqişəsi barədə faktları araşdıraraq bu nəticəyə gəlir ki, ABŞ bu qərarına yenidən baxmalıdır. Daha sonra müəllif bu qənaətə gəlməsinin səbəblərini sadalayır.




Birincisi, ABŞ işğal olunmuş, tanınmamış bir ərazini maliyyələşdirir. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə, habelə Dağlıq Qarabağın Azərbaycan ərazisi kimi qeyd edildiyi BMT Baş Məclisinin 19/13 və 57/298 saylı qətnamələrinə ziddir.

İkincisi, ABŞ Dövlət Departamenti təsdiqləyir ki, ABŞ “Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır və onun rəhbərliyi istər beynəlxalq səviyyədə, istərsə də Birləşmiş Ştatlar tərəfindən tanınmayıb. Birləşmiş Ştatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və hesab edir ki, Dağlıq Qarabağın gələcək statusu tərəflər arasında danışıqlara aid məsələdir”. Lakin Kamaras vurğulayır ki, Azərbaycanın ərazi bütövlüyünə həqiqi dəstək Ermənistanın işğalçı siyasətinə ABŞ tərəfindən qəti etiraz şəklində, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağdakı qanunsuz rejimə maliyyə yardımının tamamilə kəsilməsi yolu ilə ifadə edilməlidir.

Üçüncüsü, ABŞ qanunsuz rejimə yardım göstərməklə erməni lobbisinə uyaraq Azərbaycanın işğal olunmuş ərazilərinə səfərlər edən bəzi qanunvericiləri daha da ruhlandırır. Məsələn, ABŞ Nümayəndələr Palatasının üzvləri - Kaliforniyadan Deyvid Valadao, Nyu-Cersidən Frenk Pallon və Havay adalarından Tulsi Qabbard bu yaxınlarda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazisinə “diplomatik səfər” etməklə həm Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin pozulması faktına etinasızlıq göstərib, həm də ABŞ-ın rəsmi xarici siyasətinin prinsiplərini pozublar.

Kamaras öz məqaləsində daha sonra yazır ki, Ermənistan faktiki olaraq üçüncü dövlətin vassalıdır, lakin buna baxmayaraq amerikalı vergi ödəyicilərinin pullarından istifadəni davam etdirir. Müəllif yazır ki, Amerika Ermənistana və işğal edilmiş Dağlıq Qarabağa münasibətdə düzgün, yəni həm maliyyə, həm də mənəviyyat baxımından ağlabatan siyasət yürütməlidir.

Amerika başqa dövlətlərin vassalları olmayan real müttəfiqlərini maliyyələşdirməlidir. Amerika Dağlıq Qarabağda Ermənistan tərəfindən yaradılmış qanunsuz rejimə yardımı dayandırmaqla onun xaricə kömək göstərməsində maliyyə baxımından çox şey dəyişməyəcək, lakin bu, bütün dünyaya ünvanlanan adekvat cavab olacaq, təsdiq edəcək ki, işgüzarlıq və mənəviyyat məsələsi Birləşmiş Ştatlar üçün əhəmiyyət kəsb edir.

*Yusif Babanlı*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Vaşinqton*

## Özbəkistanın review.uz portalı Azərbaycanın turizm sənayesindən yazıb

Daşkənddəki review.uz portalı Azərbaycanın turizm sənayesi haqqında rus dilində geniş material verib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda turizmin inkişafına böyük diqqət yetirildiyi vurğulanır. Bildirilir ki, 2025-ci ilə qədər Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportunun regionun ən böyük hava limanı olması istiqamətində güclü iş aparılır. Belə ki, hazırda aeroport Avropanın 49 hava limanından təyyarələr qəbul edirsə, 2025-ci ilə qədər bu rəqəmi 100-ə çatdırmaq niyyətindədir. Yazıda bildirilir ki, 2020-ci ilə qədər Azərbaycanda açılacaq iş yerlərinin 4,5 mini turizm sahəsini əhatə edəcək. Materialda Azərbaycanda qış turizminin inkişaf etdirilməsi perspektivləri, dağ, kənd və səhiyyə turizminin daha da cəlbedici olması üçün görülən işlər haqqında da məlumat verilir.

## Daxili İşlər Nazirliyi Qaradağda baş vermiş avtobus qəzası ilə bağlı məlumat yayıb

Daxili İşlər Nazirliyi (DİN) Qaradağ rayonunda baş vermiş yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 21-də saat 13 radələrində Bakı-Qazax yolunun Qaradağ rayonu ərazisindən keçən hissəsində Lənkəran şəhər sakini Yusif Həsənov idarə etdiyi “Hovo” markalı yük avtomobilini yolun kənarında dayanmış “İsuzu” markalı 149 saylı xətt avtobusuna vurub. Nəticədə avtobusdakı sərnişinlərdən dördü müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, vəziyyətləri qənaətbəxşdir. Faktla bağlı DİN Baş İstintaq və Təhqiqat İdarəsinə bilavasitə tabe olan Yol-nəqliyyat hadisələrinə dair işlər üzrə istintaq və təhqiqat şöbəsində Cinayət Məcəlləsinin 263.1-1-ci (Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma) maddəsi ilə cinayət işi başlanılıb. Yük avtomobilini idarə edən Y.Həsənov qeyd olunan maddə ilə nəzərdə tutulan cinayəti törətməkdə şübhəli şəxs qismində tutulub. Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.





## 100 faizlik həddində olan müxalifət

**RƏFİQƏ**

***Bu fikri dəfələrlə demişik və yenə də demək məcburiyyətindəyik: axı, dağıdıcı müxalifət həyasızlığın 100 faizlik həddindədir. Dağıdıcı ünsürlərin həyasızlığı, necə deyərlər “astarı üzündən qalın” olduğu üçün yarandığı gündən mövcud iqtidarla baş-başa gəlmək istəyib, ancaq bacarmayıb. Çünki bəlli olan reallıq budur ki, iqtidara rəqib və alternativ ola bilməyib - yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət sahəsində. Nə bu gün, nə sabah, nə də gələcəkdə bu durum dəyişməyəcək.***

Maraqdoğurucu məqam odur ki, həyasızlığın 100 faiz həddində olan dağıdıcı müxalifət hər seçkiərəfəsi elə zənn edir ki, bəlkə yeni “birlik” yaratsalar, alınar. Ancaq 24 ildir ki, “bəlkələrlə” yaşayır, ancaq nəticə nə olur? Biabırçı uğursuzluq! Bir də 40-ında öyrənən gorunda çalar. Bu, o sizlərsiniz ki, dəfələrlə “birləşib”, sonradan ən qatı düşmənlərə çevrilməklə, bir-birinizi qırıb-çatıbsınız. Belə duruma düşməyinizin səbəbi isə bu gün dağıdıcı müxalifətin dövlətin verdiyi qərarları dəstəkləməməsidir. Həyasızlığın son dərəcəsi olan AXCP sədri Əli Kərimli və onun siyasi təlxəyi, sözdə “Milli Şura”nın sədri olan Cəmil Həsənli qaranlıq siyasi dairələrin qulları-nökərləridirlər, xarici orqanlara kompromatlar ötürməklə məşğul olan, milli-dövlətçilik maraqlarını satanlardır.

### Müxalifət nə etməlidir ki..?

Mövcud siyasi reallıq da bunu göstərir ki, ölkədə fəaliyyət göstərən dağıdıcı müxalifət ölü vəziyyətdədir. Təbii ki, müxalifətin zəif olması xalqa deyil, xarici ölkələrdə fəaliyyət göstərən və onlara qrant paylayan, o cümlədən, maliyyə mənbələri milyard dollarlarla ölçülən erməni lobbisinə arxalanmasıdır. Onlarınkı pul-para və həmin pul-para müqabilindəki dağıdıcılıq fəaliyyətidir. Uzun illərdir ki, biz bunu görməkdə və şahidi olmaqdayıq.

Digər bir məsələ isə özünü müxalifətçi elan edərək, bir neçə il ard-arda mitinqlərdə, aksiyalarda iştirak edib, sonradan Qərb ölkələrində sığınacaq axtarmaq arzusudur. Bu amil də düşərgənin dağılma prosesini tezləşdirir. Bu zaman sual yaranır ki, əcəba, müxalifət nə etməlidir? Məsələn, ən azından siyasi proseslərin arxasınca sürünməkdənsə, özləri proses yaratmalıdırlar.

Bütün bunlardan sonra, “mən də varam” demək, bax, “həyasızlığın 100 faiz həddidir” deməyimiz də məntiqəuyğundur. Çünki 24 illik məğlubiyyət immuniteti olan istər Ə.Kərimli, istər İ.Qəmbər, istər C.Həsənliyə düzgün düşünmək sərf etmir. Onlara sərf edən budur ki, dövlət öz təməllərini möhkəmləndirməkdən ötrü xalqın marağına cavab verən qanun layihələri hazırlasın, bunlar da həmin layihələr ətrafında “varlıqlarını” sübut etməyə çalışsınlar. Ancaq bunu da etsələr, xalq onlara dəstək olmayacaq. Onlara sözüm budur: boş yerə özünüzü yorursunuz, illər keçsə də, “iqtidara gəlirik” istəyiniz ürəyinizdə qalacaq. Çünki xalq bugünkü Azərbaycanın uğurlu dövlətçilik siyasətinin arxasındadır. Xalq-iqtidar birliyi əbədidir, sarsılmazdır!

# Azərbaycan xalqlar arasında dialoq və əməkdaşlığa töhfələrini verir

## Ölkə başçısının Sərəncamı ilə "Bakı Prosesi"nin 10-cu ildönümü qeyd olunacaq

***Son vaxtlar ölkəmiz mədəniyyətlərarası dialoqun mərkəzinə çevrilib. Milli mədəniyyətlərin qovuşduğu diyar, tolerantlıq məkanı olan Azərbaycanda müxtəlif millətlər və xalqlar dini-etnik mənsubiyyətindən asılı olmayaraq, mehriban dostluq şəraitində yaşamış və bu gün də müstəqil dövlətimiz müxtəlif xalqların və millətlərin birgəyaşayış ənənələrini qoruyub-saxlayır. Ölkəmizdəki müxtəlif dil və mədəniyyətlərin eyni səviyyədə qəbul olunması, multikultural, çoxdinli mühitdə harmoniya və bərabərlik şəraitində yaşamaq mədəniyyəti təbliğ olunur.***



Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz əsrlər boyu burada yaşayan bütün millətlərin və dinlərin nümayəndələri üçün Vətən olmuşdur. "Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirik ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır".

Belə bir məkanda, Odlar Diyarında 2008-ci ildən "Bakı Prosesi" başlanılmışdır. "Bakı Prosesi" Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüşdür. Belə ki, Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı Prosesi" təşəbbüsü irəli sürülmüşdür. Konfransda "Mədəniyyətlərarası dialoqu təşviq etmək naminə Bakı bəyannaməsi" qəbul edilmişdir.

Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ölkəmizdə tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır. Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır. BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi də bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Bakı Prosesi"nin 10-cu ildönümü qeyd olunacaq. Sərəncama əsasən, "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi aidiyyəti dövlət qurumları ilə birlikdə və tərəfdaş beynəlxalq təşkilatların təklifləri nəzərə alınmaqla, "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsinə dair tədbirlər planını hazırlayıb həyata keçirəcək. Sərəncamda o da qeyd olunur ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu iki ildən bir keçirilsin və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həmin forumlarla bağlı tədbirlər üzrə əlaqələndirici orqan müəyyən edilsin.

Bu gün, əlbəttə, ölkəmizdə keçirilən tədbirlərin müvəffəqiyyətlə reallaşdırılmasında "Bakı Prosesi"ni əhəmiyyətli rolu vurğulanır. Sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələr beynəlxalq miqyasda böyük rezonans doğurur. Azərbaycan dövləti tərəfindən həyata keçirilən xoşməramlı siyasət, həmçinin, müxtəlif mədəniyyətlərin və qitələrin qovuşuğunda yerləşən ölkəmizin həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə nail olmuşdur.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Yunanıstan səfiri BSU-nun qonağı olub



Yunanıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos Bakı Slavyan Universitetində olub. Qonaq ilk öncə BSU-da fəaliyyət göstərən Müasir Yunan Dili və Mədəniyyəti Mərkəzində yunan dili ixtisası üzrə təhsil alan tələbələrlə görüşüb, onlarla dialoqa girib. Səfir burada keçdiyi həyat yolundan, diplomatik fəaliyyətindən, incəsənətə marağından söhbət açıb və gənclərə tövsiyələrini verib.

Sonra səfiri BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edərək, Yunanıstanla Azərbaycan Respublikası arasında bütün zamanlarda səmimi dostluq və qardaşlıq münasibətlərinin olduğunu bildirib. O, səfirin çoxillik diplomatik fəaliyyəti barədə məlumatlı olduğunu qeyd edərək, onun uzun zaman müxtəlif ölkələrdə Yunanıstanı təmsil etməklə bərabər, həm də istedadlı rəssam və sənət adamı olmasını da diqqətə çatdırıb.

Rektor BSU-da Müasir Yunan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyət göstərdiyini, burada 46 nəfər tələbənin Qədim Ellada xalqının dilini, tarixini, mədəniyyətini, etnoqrafiyasını öyrəndiyini bildirib. N.Əliyeva Yunanıstanın tarixin ən qədim dövrlərindən öz alim və filosofları ilə, ədəbiyyat və incəsənət xadimləri ilə dünyada tanındığını vurğulayıb.

BSU-nun rektoru Azərbaycanın müstəqillik tarixinin bir o qədər də uzun olmadığını, bununla bərabər, dünyanın aparıcı dövlətləri ilə bir cərgədə dayandığını söyləyib. O, BSU-nun Yunanıstan Respublikasının bir çox universitetləri ilə yaxın əlaqələrə malik olduğunu, tələbə-müəllim mübadiləsi apardığını, Yunanıstan səfirliyinin BSU-da keçirilən "Səfir saat"larında fəal iştirak etdiyini nəzərə çatdırıb.

Səfir Nikolaos Kanellos Azərbaycanda olmasından şərəf duyduğunu bildirib. O, sentyabr ayından Bakıda olsa da, artıq Azərbaycan təhsilinin əsas prinsipləri ilə tanış olduğunu, onun mütərəqqi bir sistemi özündə ehtiva etdiyini qeyd edib.

Diplomat BSU-da 11 ölkənin mədəniyyət mərkəzinin olmasını yüksək dəyərləndirərək, həmin ölkələrin səfirlərinin BSU-da bir araya gələrək, "Təhsilin gələcəyi-Azərbaycanın gələcəyi" mövzusunda bir dəyirmi masanın keçirilməsinin arzuedilən olduğunu vurğulayıb. O, bunu birbaşa səfirlik və ya BSU-da fəaliyyət göstərən Müasir Yunan Dili və Mədəniyyəti Mərkəzi vasitəsilə etməyin mümkünlüyünü qeyd edib.

Görüş zamanı tədbirin əsas detalları da müzakirə mövzusu olub, onun fevral ayında keçirilməsi planlaşdırılıb. Səfir BSU rəhbərliyini öz ölkəsinə dəvət edib.

Görüşün sonunda BSU-nun rektoru qonağa hədiyyələr təqdim edib. Səfir isə öz rəsm əsərlərindən ibarət kitabı universitet rəhbərliyinə bağışlayıb.

**ZÜMRÜD**

# Azərbaycan iqtisadi inkişafının yeni modelini yaradıb

***Bu gün aparılan düzgün və məqsədyönlü siyasət nəticəsində Azərbaycan nəinki regionda, ümumilikdə dünyada iqtisadi, sosial sistemdə, eyni zamanda, institutisional sahədə ən çox inkişaf edən dövlətlərdəndir. Beynəlxalq təşkilatların hesablamalarına görə, ölkəmiz bazar münasibətlərinə keçəndə, burada adambaşına 3040 dollar ÜDM düşürdü, indi isə artıq Azərbaycanda adambaşına düşən ÜDM 5000 dollara yaxındır. Bu baxımdan demək olar ki, hazırda ölkəmiz bazar iqtisadiyyatına keçiddən qabaqkı ən yüksək göstəricini üstələyib. Son 14 ildə ölkə iqtisadiyyatına 132 milyard dollar investisiya qoyulmuş, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft ixracı 4,5 dəfə artmışdır.***

Hazırda ümumi daxili məhsulda özəl bölmənin payı 83, məşğulluqda isə 73,9 faizdir. Bu müddətdə 19,4 min sahibkarlıq subyektinə 1,2 milyard manat məbləğində güzəştli dövlət kreditləri verilmişdir. Bu kreditlər 113 min yeni iş yerinin açılmasına imkan yaratmışdır. 2003-2017-cü illərdə dövlət büdcəsinin gəlirləri 14,2 dəfə, vergi daxilolmaları 7,3 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə artmışdır. On dörd il ərzində ölkəmizdə 2708 məktəb, 500-dən çox səhiyyə müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuş, əlillər üçün 14 bərpa-müalicə mərkəzi istifadəyə verilmiş, təhsil və səhiyyə sahəsində bir sıra dövlət proqramları qəbul edilmişdir. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində mühüm işlər görülmüş, fondun dəstəyi ilə 312 məktəb tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkədə bütün çadır düşərgələri ləğv olunmuş, qaçqın və məcburi köçkünlər üçün 77 müasir qəsəbə salınmış, 140 min məcburi köçkün mənzillə təmin edilmişdir.

Görülən işlər, həyata keçirilən tədbirlər sayəsində 2017-ci ilin doqquz ayında bütün sahələrdə hərtərəfli və dinamik inkişaf təmin edilib, respublikamızın iqtisadiyyatının qısa, orta və uzunmüddətli inkişaf hədəflərinin müəyyənləşdirildiyi, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri sənədində bu sahəyə xüsusi diqqət yetirilib və çoxsaylı tədbirlər müəyyən edilib. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamlar və təsdiq etdiyi inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli kreditlərin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə ərazisində nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla manat həcmində vəsait xərclənmişdir. Məhz bunların nəticəsində cari ilin doqquz ayında qeyri-neft iqtisadiyyatı 2,5 faiz, qeyri-neft sektorunun sənaye hissəsin 3,1 faiz, kənd təsərrüfatı 2,8 faiz, xarici ticarət dövriyyəsi 7 faiz artıb. Bu ilin doqquz ayında Azərbaycanın valyuta ehtiyatları 4,5 milyard manat həcmində artaraq 42 milyard manata çatıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində ölkəmizin başçısı bu dövrdə yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyini, doqquz ayda 226 min yeni iş yerinin yaradıldığını bildirib. Ötən dövrdə ölkədə əsas infrastruktur, o cümlədən, yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, bu cür tədbirlərin həyata keçirilməsi regionların uğurlu inkişafına və ölkəmizin ümumi iqtisadi tərəqqisinə təkan verir.

## İqtisadi inkişafımız hərbi qüdrətimizin artmasına mühüm töhfələr verir

Ekspertlər təklif edirlər ki, əgər təhlükəsizlik və insan inkişafı büdcəsinə keçiriksə, onda müdafiə xərclərini artırmağa zərurət var. Düzdür bu gün Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən artıqdır. Amma bu, kifayət etməməlidir. Hərbiyə ayrılan vəsait bir qədərdə artırılmalıdır. Yəqin ki, hazırda Milli Məclisdə müzakirələri aparılan 2018-ci ilin dövlət büdcəsində bu istəklərə parlamentarilər tərəfindən nəzərə alınacaq. Çünki baş verən aprel döyüşləri və hazırda Dağlıq Qarabağ münaqişəsi ətrafında aparılan intensiv danışıqlar hərbi xərclərimizi lazımı səviyyədə saxlamağı zəruri edir. Bu, faktdır ki, güc baxımından Azərbaycan Silahlı Qüvvələri Avropanın ən güclü, cevik ordularındandır. Hər cür müasir texniki avadanlıqlara və silahsursata malik Azərbaycan Ordusu istənilən maneəni dəf etməyə qadirdir. Bunu aprel zəfəridə təsdiq etdi. Azərbaycan Ordusu cəmi 40 dəqiqə ərzində 30 ildir ki, müdafiə qurğuları quran işğalçı Ermənistanın müdafiə istehkamlarını dağıtdı, əsgəri heyətini məhv etdi və 2 min hektar ərazini işğaldan azad etdi. Söz yox ki, müasir hərbi texnikaların istehsalı, ilk növbədə, Azərbaycanda həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Son illərdə nazirliyin tabeliyinə verilmiş müəssisələr əsasında ölkədə ilk dəfə hərbi sənaye qurulmuşdur. Qısa müddətdə artıq hərbi təyinatlı məhsulların beynəlxalq silah sərgilərində nümayiş etdirilməsinə, silahlı qüvvələrin bir çox güclü silah sistemləri və texnika ilə təchiz edilməsinə nail olunmuşdur. Azərbaycan hərbi sənayesinin istehsalı olan "İstiqlal" snayper silahları hazırda dünyada bu tipli ən güclü silahlar sırasındadır. Ölkəmizin hərbi sənayesi, həmçinin, "Orbiter" və "Aerostar" tipli pilotsuz kəşfiyyat təyyarələrini, 14,5 millimetrlik pulemyotla təchiz edilmiş "Matador" və "Marauder" zirehli nəqliyyat vasitələrini, 12,7 millimetrlik pulemyotla və tank əleyhinə raket kompleksi ilə təchiz olunmuş xüsusi təyinatlılar üçün "Gürzə" və "Əqrəb" tipli patrul maşınlarını, 60, 80 və 120 millimetrlik minaatanları, əl və tank pulemyotlarını, bir neçə növdə tapançaları, naviqasiya və müşahidə cihazlarını, rabitə vasitələrini, müxtəlif çaplı patronları və digər döyüş sursatlarını istehsal edir. Bundan başqa, ölkəmizdə piyadaların "BTR" döyüş və kəşfiyyat-gözətçi "BRDM" maşınlarının modernləşdirilməsi həyata keçirilir. Beləliklə, ötən on ildə ölkənin hərbi qüdrətinin artırılmasına imkan verən strateji sahə - müdafiə sənayesi təşəkkül tapmışdır. Azərbaycanın müdafiə sənayesi hazırda 750 adda hərbi təyinatlı məhsul istehsal edir. Bu, bir daha sübut edir ki, Dağlıq Qarabağ münaqişəsini müharibə yolu ilə həll etmək üçün Azərbaycanın çox möhkəm hərbi potensialı vardır. Prezident İlham Əliyevin böyük uzaqgörənliklə, müasir dövrün çağırışlarına uyğun reallaşdırdığı, milli maraqlarımızın ən ali norma prinsiplərini özündə ehtiva edən inkişaf strategiyası Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, dövlətçilik mənafelərinin qorunmasını, onun dinamik inkişafını, sosial-iqtisadi tərəqqisini sürətləndirməklə yanaşı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına və dünya birliyinə sürətli inteqrasiyasına böyük töhfələr verməkdədir. Bu günlərdə dünyanın nüfuzlu maliyyə və iqtisadi institutlarından olan "Dünya Bank"ı tərəfindən hazırlanan "Doing Business 2018" hesabatında Azərbaycan 8 pillə irəliləyərək, 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəlib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan 8 pillə irəliləməklə yanaşı, həmçinin, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşib. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanının tətbiqi nəticəsində iqtisadiyyatımızın mühüm sahələrində müsbət tendensiyalar nümayiş edilməsi mühüm rol oynayıb. "Doing Business 2018" hesabatında Azərbaycanın mövqeyi 10 indikatordan 6 indikator üzrə- elektrik enerjisinin əldə edilməsi (3 pillə), əmlakın qeydiyyata alınması (1 pillə), kiçik investorların hüquqlarının qorunması (22 pillə irəliləyərək 10-cu yer), vergilərin ödənilməsi (5 pillə irəliləyərək 35-ci yer), müqavilələrin icrası (6 pillə irəliləyərək 38-ci yer) və müflisləşmənin həlli (39 pillə irəliləyərək 47-ci yer) öz əksini tapıb. Azərbaycanın ən böyük irəliləyişi müflisləşmənin həll edilməsi və kiçik investorların hüquqlarının qorunması kateqoriyaları üzrə əldə edilib. Əvvəllər Azərbaycana investisiyaların 80 faizi xarici investorların payına düşürdü və onun böyük hissəsi neft sektoruna qoyulurdu. Qalan 20 faiz isə daxili investisiyanın payına düşürdü. İndi göstəricilər dəyişib. Ölkəmizə qoyulan investisiyaların 80 faizindən çoxunu daxili, 18 faizdən çoxunu xarici investisiyalar təşkil edir. Bu vəsaitin də xeyli hissəsi dövlət büdcəsi vasitəsilə bölüşür. Körpülərin və yolların çəkilməsi, infrastruktur layihələrinin həyata keçirilməsində özəl sektora sifarişlər verirlər. Bununla da özəl sektorun inkişafına çox ciddi təkan verilir. Son on dörd ildə Azərbaycanda bütün sahələrdə böyük tərəqqi baş vermiş, respublikamız dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Bu dövrdə elə bir sahə olmamışdır ki, orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. 14 il ərzində Azərbaycanda ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru isə 2,7 dəfə artmışdır. Ölkənin strateji valyuta ehtiyatları 30 dəfə artaraq, 50 milyard dollara yaxınlaşmışdır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əhalinin rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmış, gəlirləri 6,1 dəfə artmış, 1,2 milyon iş yeri açılmışdır. Bu dövrdə yoxsulluğun səviyyəsi 6 faizə, işsizliyin səviyyəsi isə 5,2 faizə qədər azalmışdır.



## Bakı-Tbilisi-Qars dəmir yolu xalqları bir-birinə daha da yaxınlaşdıracaq

2007-ci ildə Tbilisidə imzalanan və bu il oktyabrın 30-da təntənəli şəkildə açılışı olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva, Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev, Gürcüstan Baş naziri Georgi Kvirikaşvili, Özbəkistan Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak ediblər. Birmənalı şəkildə, demək olar ki, layihənin həyata keçirilməsi Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin uğurudur. Çünki bu layihənin reallaşmasında dövlət başçısının nüfuzu, siyasi iradəsi və dərin zəkası mühüm rol oynadı.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində çıxış edərək yolun əhəmiyyəti barədə demişdir: "Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bugünkü təntənəli mərasimdə qardaş və dost ölkələrdən qonaqlar gəlmişlər. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı, əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq".

Dəmir yolu vasitəsi ilə Bakıdan Türkiyənin Qars şəhərinə 16-17 saata, İstanbul şəhərinə isə iki gün yarıma çatmaq olacaq. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tam gücü ilə işə düşməsindən sonra bu marşrutla 17 milyon tondan çox yük və 1 milyondan artıq sərnişinin daşınması nəzərdə tutulur. 2018-ci il yanvarın 1-dən sərnişin daşınmalara starat veriləcək. Azərbaycanın ilk illərdə tranzitdən minimal gəliri 50 milyon dollar təşkil edəcək. Yüklərin daşınması artıq uğurla davam edir. Gələcəkdə isə Avropa və Asiya ölkələrinə məxsus yüklərin Bakı-Tbilisi-Qars dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə daşımaların həcmini artıracaqdır. Bu marşrut üzrə beynəlxalq layihənin həyata keçirilməsi region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiyanın sürətlənməsinə, Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, habelə, ölkəmizin xarici-iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Bu gün Cin, Qazaxıstan, Türkmənistan və digər ökələrə yüklər, əsasən, dəniz nəqliyyatı vasitəsilə daşınır və bu da vaxt etibarı ilə 40-45 gün təşkil edir. Çindən Avropaya Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yüklərin daşınması isə 12-15 gün təşkil edəcək və nəticədə dəniz daşımasına nisbətən yüklərin mənzil başına çatdırılması müddəti 3 dəfə qısalacaqdır. Sahibkarlığın inkişafında bu layihənin önəmi cox böyükdür. Azərbaycan Prezidenti İlham Əliyev yolun açılışında bununla bağlı demişdir: "Biznesin inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun çox böyük əhəmiyyəti var". Bu baxımdan, demək olar ki, bu yolun iqtiasdi əhəmiyyəti biznes strukturlarının inkişafına yardım etməklə yanaşı, xalqların bir-birinə daha da yaxınlaşmasına və əlaqələrinin möhkəmlənməsinə mühüm töhfələr verəcək.

***Qismət İsmayılov,***
***İqtisadiyyat şöbəsinin müdiri***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqə üçün.*

# Daşkəsən rayonunda ədliyyə işçilərinin peşə bayramı qeyd edilib

*Dünən Daşkəsən rayonunda ədliyyə işçilərinin peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları, ilk öncə rayon mərkəzində ucaldılmış Ümummilli Liderimiz Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Sonra rayonun Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxıblar.*






Tədbirdə çıxış edən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev ədliyyə işçilərini peşə bayramı münasibətilə təbrik edərək, bu bayramın Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis olunduğunu söyləyib. Ulu Öndər Heydər Əliyevin ədliyyə və məhkəmə orqanlarının inkişafı prosesində xidmətlərini xatırladan Ə.Abıyev qeyd edib ki, bu sahədə həyata keçirilən uğurlu islahatlar Azərbaycanda ədliyyə sisteminin inkişafı və formalaşması ilə nəticələnmişdir: "Prezident İlham Əliyevin bu sahədə islahatların dərinləşdirilməsinə, ədliyyə işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına dair sərəncamları çoxminli ədliyyəçilər ordusu tərəfindən yüksək qiymətləndirilir. Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da, Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmış oldu. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək, məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını tə'min etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək, onun gələcək inkişafı üçün zəmin yarandı. Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı və səlahiyyət dairəsi genişləndi".

Rayon rəhbəri onu da vurğulayıb ki, cari ilin 14 iyul tarixində ədliyyə naziri Fikrət Məmmədov Daşkəsən rayonunda vətəndaşlarla görüşü keçirib. Səfər zamanı hörmətli ədliyyə naziri Daşkəsən Rayon Məhkəməsinin əsaslı təmir olunan inzibati binasında olaraq rayonun məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti, onların iş şəraiti ilə tanış olub. Həmçinin, ölkə Prezident Cənab İlham Əliyevin 14 oktyabr 2017-ci il tarixli müvafiq Sərəncamı ilə Əliyev Azad Allahverdi oğlu Daşkəsən Rayon Məhkəməsinin sədri təyin olunubdur.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və bu gün Prezident Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisində və demokratik-hüquqi dövlət quruculuğu işində Möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün bundan sonra da Daşkəsən Rayon Məhkəməsi və kollektivi əzmkarlıqla və məsuliyyətlə çalışacaqlar.

Tədbirdə Daşkəsən Rayon Məhkəməsinin sədri Azad Əliyev çıxış edərək qeyd edib ki, ölkə Prezidenti İlham Əliyevə ədliyyə işçilərinə verdiyi bu cür diqqət və qayğıya görə dərin minnətdarlığını bildirib: "Onun rəhbərliyi altında demokratik və ədalətli Azərbaycan uğrunda öz fəaliyyətimizi qurmağa çalışırıq".

Tədbirdə digər çıxış edənlər də rayon ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzulayıblar. Tədbirin sonunda xatirə şəkli çəkildi.

**R.HÜSEYNOVA**

## Mobil telefonların qanunsuz yolla ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb




Mobil telefonların qanunsuz yolla ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Sınıq Körpü" gömrük postunda Gürcüstandan Azərbaycana gələn Azərbaycan vətəndaşının idarə etdiyi minik avtomobilinə gömrük nəzarəti həyata keçirilib. Yoxlama zamanı, nəqliyyat vasitəsinin salonunda gizlədilmiş 2 ədəd "Samsung Galaxy J3" və 1 ədəd "Samsung Galaxy J3 Pro" markalı mobil telefonlar aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

## Qəzaya uğrayan ABŞ təyyarəsindəki 11 nəfərdən 8-i xilas edilib

ABŞ Hərbi Dəniz Qüvvələrinin Okinava adasın0.ın cənub-şərqində qəzaya uğrayan C-2 təyyarəsinin göyərtəsindəki 11 nəfərdən 8-i xilas edilib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bunu jurnalistlərə Yaponiyanın müdafiə naziri İsunori Onodera bildirib. Hazırda hadisə yerində axtarış-xilasetmə əməliyyatı davam etdirilir. ABŞ donanmasının 7-ci operativ komandanlığının məlumatına görə, "Ronald Reyqan" təyyaredaşıyan gəmisi istiqamətində uçan təyyarə Okinava adasından 530 kilometr cənub-şərqdə, Filippin dənizindəki Okinotori rifi yaxınlığında suya çırpılıb. Qəzaya təyyarənin mühərrikində yaranan nasazlığın səbəb olduğu güman edilir.

## Ölkə üzrə 186 min tondan çox pambıq tədarük olunub

Noyabrın 22-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 186 min 774,14 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən gün 1265,77 ton pambıq tədarük olunub. Xatırladaq ki, 2016-cı ildə, ümumilikdə, 88 min 596 ton pambıq yığılmışdı.

## TANAP və "Şahdəniz-2" 2018-ci ildə Azərbaycanın iqtisadi artımına təkan verəcək

TANAP və "Şahdəniz-2" layihələrinin reallaşdırılması 2018-ci ildə Azərbaycanın iqtisadi artımına təkan verəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) hesabatında deyilir. Bildirilir ki, Azərbaycanın ÜDM-i 2018-ci ildə 2 faiz artacaq. "Mühüm qaz infrastruktur layihələrinin ("Şahdəniz-2", TANAP) reallaşdırılmasının 2018-ci ildə ölkədə iqtisadi artıma təkan verəcəyi gözlənilir. ÜDM-in isə gələn il 2 faiz artacağı proqnozlaşdırılır", - deyə hesabatda qeyd edilir.

## "Qonaq-şagird"

### *Bu mövzuda layihə çərçivəsində Bakı şəhəri 299 saylı məktəb-liseydə dəyirmi masa keçirilib*



Bakı şəhəri 299 saylı məktəb-liseydə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsində qalib olmuş "Qonaq-şagird" layihəsi çərçivəsində "Dəyirmi masa" və tədbir keçirilmişdir. SİA-nın verdiyi məlumata görə, dəyirmi masada çıxış edən layihənin rəhbəri Nuriyyə Verdiyeva layihənin məqsədi, həyata keçiriləcək işlər barədə məlumat verərək bildirib ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsində qalib olmuş "Qonaq-şagird" layihəsi bölgə və şəhər məktəbləri arasında əlaqələri genişləndirmək, təcrübə mübadiləsi apararaq və qarşılıqlı əməkdaşlıq əsasında təhsilin keyfiyyətini daha da artırmaq, hansı məktəbdə təhsil almasından asılı olmayaraq, hər bir şagirdin bərabər təhsil mühiti ilə təmin olunmasına şərait yaratmaq məqsədi daşıyır. Bu məqsədlə bir neçə məktəb arasında iki həftə müddətində şagird mübadiləsi həyata keçirilmişdir.

Layihə Bakı şəhəri 299 saylı məktəb-liseyi, Beyləqan rayonu Namiq Abdullayev adına 1 saylı tam orta məktəbi və Goranboy rayonu Qızılhacılı qəsəbə Mahir Dosiyev adına 2 saylı tam orta məktəbi əhatə edir.

Layihə çərçivəsində 8 şagird bölgələrdən Bakı şəhəri 299 saylı məktəb-liseyə, 8 şagird isə Bakıdan bölgə məktəblərinə: Beyləqan rayonu Namiq Abdullayev adına 1 saylı tam orta məktəb və Goranboy rayonu Qızılhacılı qəsəbə Mahir Dosiyev adına 2 saylı tam orta məktəbə mübadilə edilərək iki həftə orada təhsilini davam etdirmişdir. Bu müddətdə layihə iştirakçıları olan şagirdlər və onların müəllimləri arasında aparılan rəysorğular eyni şagirdlərə fərqli müəllimlərin, eyni məktəblərə isə fərqli şagirdlərin gözü ilə baxmağa imkan yaratmışdır.

İki həftəlik təhsil müddətinin sonunda hər üç məktəbin pedaqoji kollektivlərinin nümayəndələri "Dəyirmi stol" arxasında bir araya gələrək problemləri müzakirə etmişlər. Müzakirələrdən sonra hər üç məktəbin müəllim və şagirdlərinin iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə layihədə görülən işləri əks etdirən videoçarx da nümayiş etdirilmişdir.

# Arif Hacılı İsa Qəmbərin kölgəsinə sığınır

2018-ci ilin oktyabr ayında Azərbaycanda növbəti prezident seçkiləri keçirilməsi nəzərdə tutulur. Adətən, siyasi partiyalar seçkilərə bir il qalmış hazırlıq işlərinə start verir, hətta namizədlərini müəyyən edirlər. Daha sonra seçki təbliğatı üçün müvafiq addımlar atılır. Müsavat partiyasının başqanı A.Hacılı bildirib ki, seçki ilə əlaqədar müəyyən addımların atılması ilə bağlı partiyanın təklifləri olduğunu və Müsavat partiyası 2018-ci il prezident seçkilərində iştirak edəcəksə, bu seçkilərə partiyanın keçmiş başqanı İ.Qəmbərin namizədliyi irəli sürüləcək.

Uzun illər Azərbaycan müxalifətində əsas fiqurlardan biri olan İ.Qəmbər 2003-cü ildə acınacaqlı məğlubiyyətlə üzləşdi. Bundan sonra da illər boyu uğursuzluqlarla qarşılaşan İ.Qəmbər 2014-cü ildə A.Hacılını öz varisi adlandırdı və Müsavat partiyasının başqanı vəzifəsindən istefa verdi. Partiyanın VIII qurultayı Müsavatın başqanı vəzifəsinə A.Hacılının seçilməsinə dəstək verdi.

### Hacılını "piyasa"da saxlayan məhz İsa Qəmbər olub

A.Hacılı İ.Qəmbərin projesi idi və məhz onun dəstəyi sayəsində, o çox çətinliklə qələbə qazanaraq Müsavat başqanı oldu. Hər kəsə məlumdur ki, bütün zamanlarda, xüsusən, 2003-cü ildən sonra Hacılını "piyasa"da saxlayan, məhz İ.Qəmbər olub. A.Hacılı İ.Qəmbərsiz siyasi arenada dözüm nümayiş etdirmək iqtidarında deyil. İ.Qəmbər bu gün onun arxasından çəkilsə, Hacılı 2006-cı ildə olduğu kimi, partiyadan getmək barədə qərar qəbul edər. Nədən İ.Qəmbər A.Hacılını bu qədər dəstəkləyir? Çoxlarını düşündürən bu sualın cavabı İ.Qəmbərin 2018-ci il prezident seçkisinə namizəd olaraq irəli sürüldüyü zaman artıq aydın oldu.

### Avantürist davranışları və manipulyasiya etmək cəhdləri yenilik deyil

Bütün kriteriyalara görə İ. Qəmbəri özündən üstün hesab edən A.Hacılı, keçmiş başqanın prezident seçkilərinə namizədliyinin Müsavat partiyasının maraqlarına uyğun olması iddiası ilə çıxış etməklə, fikir çaşqınlığı yaratmağa çalışsa da, əslində, müsavatçılar belə İ.Qəmbərin nəinki prezidentliyə, hətta namizədliyə belə layiq olmadığının və onun özünün isə marionet olduğunun fərqindədir. Artıq bu kimi fiqurların fəaliyyəti, siyasi manipulyasiya etmək cəhdləri, avantürist davranışları Azərbaycan cəmiyyəti üçün yenilik deyil və hər dəfə seçkiqabağı aktiv fəaliyyət nümayiş etdirməyə çalışanların simasını xalq çox yaxşı tanıyır.

Maraqlıdır, A.Hacılı bir tərəfdən müxalif qüvvələri birliyə çağırır, amma başqan olduğu partiyada müxalif fikirli müsavatçıları partiyadan uzaqlaşdırmaqla fərqli mövqe ortaya qoyur. Sonra da özünə yaxın mətbuat orqanlarını, müxalifətin "uğursuzluğu"nu, məhz müxalifətin bir araya gələ bilməməsi nəticəsində nüfuzunu itirməsi ilə izah etməkdə günahlandırır. Bir sözlə müxalif qüvvələrin parçalanmasını özü də etiraf edir, amma bu həqiqətləri yazan mətbuatı qınayır.

### Anormal davranışlar və ənənələr eynilə təkrarlanmaqdadır

Göründüyü kimi, Müsavat partiyası, onun istər indiki, istərsə də keçmiş başqanının fəaliyyəti, ideya və fikirləri təzadlarla zəngindir. Həmçinin, bu partiyanın və partiyada təmsil olunan "başqan"ların ictimai




proseslərə münasibəti, individual yanaşma tərzi də fərqli və gülüncdür. Amma anormal davranışlar və ənənələr eynilə təkrarlanmaqdadır. Belə ki, 2018-ci il prezident seçkilərinə qatılmaq üçün A.Hacılı Müsavat başqanı olaraq özü deyil, İ.Qəmbərin namizədliyinin irəli sürülməsi partiyanın ənənələrindən irəli gəlir. Hələ 2013-cü ilin yanvarında Müsavat partiyasının məclisi tərəfindən prezidentliyə namizəd irəli sürülsə də, İ.Qəmbər müzakirələrin gedişində Rüstəm İbrahimbəyovu "vahid namizəd" kimi müdafiə etməyə hazır olduğunu və bu, baş tutacaqsa, partiyanın bütün resurslarının bu prosesə cəlb olunacağını bildirirdi. Məsələ burasıdır ki, A.Hacılı kimi İ.Qəmbər də özü başqan olduğu halda, digər bir funksioneri namizəd olaraq irəli sürürdüsə, vahid namizəd kimi dəstəkləyirdisə, deməli, partiya öz çürük ənənəsinə sadiqdir və kim kimin qanadı altında kölgələnirsə, öz namizədliyini deyil, onun namizədliyini irəli sürəcək.

Müsavat partiyasının keçmiş başqanı İ.Qəmbərin A.Hacılıdan istifadə etmək üçün yeni başqan təyin etdirməsi ilə bağlı deyilənlərdə bir həqiqət var və bu həqiqət ortaya çıxdı. Çünki İ.Qəmbər rəsmi şəkildə başqanlıqdan getsə də, görünən odur ki, A.Hacılı hələ də onun kölgəsindən kənara çıxa bilmir. Bu da, o deməkdir ki, yeni başqan özünün potensialını, eləcə də, müstəqil şəkildə qərar verməK səlahiyyətlərini ümumiyyətlə, həyata keçirə bilmir və İ.Qəmbərin idarəçiliyi altındadır.

*İnam HACIYEV*

# Leyla və Arif Yunuslar vətənə xəyanət statusunu çoxdan etiraf ediblər

Dünyada Azərbaycanın nailiyyətlərinə qısqanclıqla yanaşan və insan adlandırmaqda çətinlik çəkdiyim qrantyeyənlərin - "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunus və Arif Yunusun məhkəmənin qərarı ilə azad edildikdən sonra Hollandiyaya guya müalicəyə getdikləri bildirilirdi. Ancaq Azərbaycanı tərk etdikdən sonra uzun müddət susqun qalan L.Yunusun yenidən səsinin gəlməsi heç də təəccüb doğurmur. Çünki cinayətkar nəinki öz cinayətlərini ört-basdır etməklə kifayətlənir, hətta cinayətkarlara qahmar da çıxır. Çünki çörəyi dizinin üstündə olan o Leyla Yunusdur ki, həbsdən azad olunmasına görə, təşəkkürlər etmək əvəzinə, yenə də xarici havadarlarının istəklərini yerinə yetirməyə cəhdlər göstərir, öz xislətində olanlara qahmar çıxır. Bu gün Azərbaycan ictimaiyyətinə L.Yunusun kim olduğu bəllidir. L.Yunusun Azərbaycan xalqı və dövləti əleyhinə apardığı təbliğat kampaniyası erməniрəst qüvvələrin ölkəmizə qarşı törətdiyi məkrli əməllərdən heç də fərqlənməyib. Təbii ki, ictmai rəy bu adamların hansı yuvanın quşu olduğunu yaxşı bilir və bu cütlüyün uzun illər erməni lobbisinin himayəsi altında Azərbaycan dövlətçiliyinə qarşı aşkar fəaliyyət göstərdikləri də kifayət qədər məlumdur. Belə cinayətkarların cinayətkarlara necə qahmar çıxması isə təəccüb doğurur. Elə götürək "Müsəlman Birliyi" Hərəkatının "lideri", terrorçuluqda ittiham olunan Taleh Bağırzadəyə "şanlı" məktub yollayaraq, onu dəstəkləyir. Çünki o, hansı xislətdə olduğunu nümayiş etdirir. Bir də atalar demişkən, qozbeli qəbir düzəldər. Bu yerdə beləsinə ay b... desən azdır. Bu gün də yenidən terrorçu T.Bağırzadəni müdafiə edən L.Yunusu maraqlandıran, narahat edən, bu ərəfədə gecələr yatmağa qoymayan məsələ nədir? L.Yunus indi də prezident seçkiləri ərəfəsində qanunlarımızdan danışır və sərsəm-sərsəm fikirlər söyləyir. Ancaq bu günə qədər mənasız həyatındakı səhvlərini



etiraf etməyə cürəti çatmır.

Sözsüz ki, Azərbaycanda hər kəs, hətta siyasi proseslərdən bixəbər sadə vətəndaşlar belə, L.Yunusun, eləcə də, onun həyat yoldaşı A.Yunusun kim olduğunu, nəyə və kimlərə xidmət etdiklərini çox gözəl bilirlər. Bir sözlə, adi bir oğrunu da siyasi məhbus adı ilə Avropaya təqdim edib qrant alan L.Yunus puldan ötrü ölkənin sərvətlərini satıb, ölkənin milli maraqlarına ciddi zərbə endirər. Çünki satqınlıq simvolu öz maraqlarının təmin olunması üçün hər cür vasitəyə əl atmağa qadir birisidir. Yəni onun üçün milli-mənəvi dəyərlər, ölkənin maraqları deyilən bir anlayış yoxdur. L.Yunus Azərbaycanın inkişafını, ölkəmizin gündən-günə qüdrətlənməsini gözü götürməyən bir sıra ölkələrin, əsasən də, erməni lobbisinin maraqlarına xidmət etdiyindən, o, həmin qüvvələr üçün xüsusi önəm daşıyır. Məhz elə bu səbəbdən də, onlar nə yolla olursa-olsun, L.Yunusun azadlığa çıxmasına çalışırlar. Lakin bu, heç bir nəticə verməyəcək. Çünki L.Yunus və həyat yoldaşı A.Yunus uzun müddət Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq ediblər. Azərbaycan dilində yalnız söyüş söydüyünü, şərəfini, ləyaqətini satan, ermənilərlə iş birliyini gizlətməyən L.Yunus bu gün ittiham olunduğu vətənə xəyanət statusunu çoxdan etiraf edib. Odur ki, bu gün o və əri etdikləri xəyanətlərinin cəzasını çəkməlidirlər.

*Rəfiqə HÜSEYNOVA*

# Əli Kərimli Leyla Yunusun dalında gizlənir

***Son vaxtlar qondarma hüquq müdafiəçiləri Xədicə İsmayıl, Leyla Yunus və digərləri Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlarını daha geniş şəkildə işlətməyə başlayıblar. Faktlar və araşdırmalar təsdiq edir ki, onları danışdıran "Soros" fondudur. Daha doğrusu, Corc Sorosun qondarma hüquq müdafiəçilərinə ayırdığı vəsait onları ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməyə həvəsləndirib. Söhbət etdiyimiz müsahiblərimiz X.İsmayıl və L.Yunusun məkrli iddialarının arxasında AXCP sədri Ə.Kərimlinin və Müsavat başqanı A.Hacılının dayandığını bildirdilər.***

### Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov:

- "Soros" fondunun Azərbaycana qarşı təxribatları bu gün və dünən deyil, yeni illərdir ki, davam edir. Demək olar ki, "Soros" fondu ölkəmizdə qarışıqlıq salmaq məqsədi ilə ayrı-ayrı qüvvələri maliyyələşdirir. Ümumiyyətlə, "Soros" fondu Azərbaycanla bağlı deyil, dünyanın müxtəlif yerlərində demokratiya və insan hüquqları pərdəsi altında, pozucu qarışıqlıq yaratmağa cəhdlər göstərir. Bu gün, ümumiyyətlə, kim isə "Soros" fondundan maliyyə vəsaiti alanların bir məqsədi var, o da yaşadığı ölkədə vəziyyəti gərginləşdirmək və həmin ölkədə gedən inkişafa maneçilik törətməkdir. Bu gün X.İsmayıl, L.Yunus kimilərinin xisləti hər kəsə məlumdur. Azərbaycan dövlətinin belə sürətlə inkişafını həzm edə bilməyən qüvvələr kifayət qədərdir. Heç şübhəsiz ki, başda erməni lobbisi olmaqla, demək olar ki, "Soros" fondu da erməni lobbisinin əlində oyuncaq bir təşkilatdır. Erməni lobbisi bu təşkilatla çox sıx əlaqədədir. AXCP-nin bəzi funksionerlərinin X.İsmayılı və L.Yunusu dəstəkləyən açıqlamalar verməsi başa düşüləndir. Çünki xarici qüvvələr onlardan bunu tələb edirlər. Cəbhəçilər də əmrə müntəzir qul kimi göstərişi yerinə yetirirlər. Əgər bunlar onların qoyduğu tapşırıqlardan imtina etsələr, onda onlara pul verməyəcəklər. Bunlar da pul qazanmaq və boş qalan ciblərini doldurmaq üçün məcburdurlar ki, onların dediklərinə əməl etsinlər.

### "Yurddaş" partiyasının sədri Mais Səfərli:

- Xədicə İsmayıl və Leyla Yunus kimilərin "Soros" fonduna və digər Azərbaycana qarşı qərəzli mövqedə olan fondlara bağlı olduğu hər kəsə bəllidir. Bu fondların Azərbaycana qarşı qərəzli münasibət sərgiləmələri və ölkəmizdə nə isə xoşagəlməz bir vəziyyətin yaradılmasına cəhdlər göstərirlər. Bunun üçün də X.İsmayıl, L.Yunus kimi şəxslərdən istifadə edirlər. Çünki onları inkişaf etmiş Azərbaycan dövlətinin əldə etdiyi uğurlar çox narahat edir. Bu baxımdan da, Azərbaycanın uğurlarına kölgə salmaq istəyirlər. Amma onların nə dəmələrindən və ətmələrindən asılı olmayaraq, Azərbaycan dövlətinin uğurlarına kölgə sala bilməyəcəklər. Demək olar ki, "Soros" fondu və digər qərəzli təşkilatların Azərbaycanla bağlı söylədikləri qarayaxmalar, artıq heç kəs tərəfindən qəbul olunmur. Çünki dünyanın güc mərkəzləri Azərbaycan dövlətinin gücünü və qüdrətini çox yaxşı görürlər. Çünki hər şey göz qabağındadır. Ancaq pislik elə X.İsmayıl və L.Yunus kimilərə, eləcə də, "Soros" fonduna və digər qərəzli təşkilatlara qalacaqdır. Azərbaycan öz uğurlu inkişafını davam etdirəcək. Dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslərin X.İsmayıl ilə L.Yunus kimilərə dəstək verməmələri onların eyni mərkəzdən idarə olunmalarından xəbər verir. Adları çəkilən şəxslər Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək qüvvələr deyillər. Bu kimi şəxslərin yersiz fikirlər səsləndirmələrini cəmiyyətimiz qəti şəkildə diqqətə almır. Bu baxımdan da, radikal müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur və bundan sonra da olmayacaq

*GÜLYANƏ*

# Milli-mənəvi mədəniyyət Azərbaycan etnoqrafiyasının tərkib hissəsi kimi

***Məlum olduğu kimi, Azərbaycanın milli mədəniyyətində adət-ənənələrimiz əsas yer tutur. Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan xalqı haqqında müdrik və dahiyanə sözlər söyləmişdir: "Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə və savada malik olan xalqdır. Xalqımız itkilər də, qurbanlar da, şəhidlər də verib və ancaq heç vaxt sınmayıb, iradəsindən dönməyib, iradəsini itirməyib. Xalqımız məğrur xalqdır. Bizim xalqın birliyi yaranıbdır və indi heç kəs bu birliyi sındıra bilməz, heç kəs onu poza bilməz. Bizim hamımızın borcumuz, vəzifəmiz bu birliyi, həmrəyliyi daha da yuksəkliyə qaldırmaq və ölkəmizi daha da yüksəltməkdir.***

Azərbaycan xalqı istedadlı xalqdır, onun zəngin mədəniyyəti var, bu gün müstəqil dövləti, milli azadlığı var və Azərbaycan xalqının bundan da gözəl gələcəyi vardır. Azərbaycan xalqı istedadlılarla, görkəmli insanlarla həmişə zəngin olmuşdur. Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq, onların arasında sülh və əmin-amanlıq və mehribanlıq əlaqələrinin olmasına çalışmışdır.

Azərbaycan xalqının ən yüksək xüsusiyyətlərindən biri onun dözümlülüyü, dəyanətliliyi və yüksək iradəsidir. Azərbaycan xalqı sülhsevər xalqdır. Azərbaycan xalqı dözümlü xalqdır. Bu, bizim xalqımızın milli xüsusiyyətidir."

Hələ Sovet dövründə Heydər Əliyev azərbaycanlıların milli-mənəvi birliyi uğrunda ciddi mübarizə aparırdı. Bu barədə AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı bütün fundamental əsərində yazır: "Müəyyən məkan və zaman daxilində fəaliyyət göstərən siyasi, dövlət xadiminin həyatına və həyata keçirdiyi tədbirlərə mövcud şəraitdən kənarda, mücərrəd halda qiymət vermək qeyri-elmi və yanlışdır. Belə qiymət heç vaxt kiçicik tənqidə də tab gətirə bilmir. Bu baxımdan, Heydər Əliyevin fəaliyyəti də istisna deyil. Heydər Əliyev Azərbaycan xalqının zəngin tarixinin bir hissəsini təşkil edən sovet dövründə dünyaya gəlmiş, boya-başa çatmış, işləmiş, Sovet cəmiyyətinin yetişdirdiyi görkəmli siyasi və dövlət xadimi və respublikanın kommunist rəhbəri idi. Xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, döyüşkən, cəsarətli, inadcıl, prinsipləri uğrunda qətiyyətlə mübarizə aparan, beynəlmiləlçiliyi həyata keçirən partiya rəhbəri olmaqla yanaşı, milli ruhlu, millətsevər bir azərbaycanlı siyasi xadim, tarix yaradan böyük dövlət adamı və milli lider idi.

Heydər Əliyev hakimiyyətə gəldikdən dərhal sonra xalqının qarşısında duran başlıca problem olan siyasi rəhbərlik daxilində yekdillik, azərbaycanlılar arasında milli birlik və xalqla hakimiyyət arasında uçurumu aradan qaldırıb vəhdət yaratmaq kimi problemi həll etməyə ciddi səylə girişdi. O, respublikanın rəhbəri seçilən kimi atdığı birinci addımı ilə bu cəhətdən nümunə göstərdi".

Azərbaycan milli-mənəvi mədəniyyəti, adət-ənənələri və özünəməxsus xüsusiyyətləri haqqında xarici tədqiqatçılar da geniş bəhs etmişlər. Onların XIX əsrdə yaşayıb-yaratmış fransız tədqiqatçısı E.Peklün yazırdı: "Cənubi Qafqazda yaşayan azərbaycanlılar Qafqazın heç bir xalqına xas olmayan keyfiyyətlərə malikdirlər. Belə nadir səmimiyyətə və tamahdan uzaq düzgünlüyə, həddən artıq mehribanlığa və qonaqpərvərliyə yalnız onların arasında rast gəlmək olar. Azərbaycanlılar Qafqazda mədəniyyət yayanlar hesab olunur".

XX əsrin əvvəllərində görkəmli rus alimi V.L.Veliçko "Qafqaz" əsərində xalqımızın şərafəti və bəşəri keyfiyyəti haqqında heyranlıqla yazırdı: "Heç şübhəsiz, azərbaycanlıların qanları safdır; onlar təbiətən alicənab, mehriban, xoşrəftar, mərd və genişürəklidirlər, zehni cəhətdən istedadlı, əxlaqi baxımdan təmizdirlər". Həqiqətən, xalqımız xeyirxahlığı, qədirbilənliyi, ləyaqətliliyi, nəcabətliyi, saflığı, mərdliyi və mübarizliyi ilə seçilir. Dostluqda etibarlı, qonşuluqda əvəzsizdirlər.

Azərbaycanın görkəmli alimi tarix - etnoqrafiya elmimizin korifeyi, akademik Teymur Bünyadov yazır: "Azərbaycanlıların müdrik, sülhsevər, adına, andına, inamına, əqidəsinə sadiq, əslinə və kökünə minnətdar, zəngin təbiətli - alicənab, genişürəkli, vətəncanlı, sadə, səmimi, istiqanlı, əməksevər, qonaqpərvər və bəşəri xalq olması əsərin qayə, məna və məzmununda öz əksini tapmışdır".

Görkəmli alimimiz T.Bünyadov mənəvi mədəniyyətin tərkib hissəsi kimi aşağıdakıları xüsusi qeyd edir:

- Xalq bayramları (Novruz, Qurban, Oruclıq bayramları);
- Ailə-məişət ənənələri;
- Ağsaqqallıq və ağbirçəklik institutları;
- Qonaqpərvərlik və s.

Akademik Teymur Bünyadov "Azərbaycan etnoqrafiyası" kitabında ön sözdə Azərbaycan milli mədəniyyətinə daxil olan bu ənənələri ümumiləşdirərək yazır: "Belə bir bəşəri xalqı layiqincə öyrənmək alimlərimiz üçün şərəf işi, qürur hissi olmaqla yanaşı, həm də böyük məsuliyyət tələb edir.

Mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri xalq bayramlarıdır. Onların arasında ən qədimi və geniş yayılanı Novruz bayramıdır. Bu bayram öz yaşarılığı, kütləviliyi, məna və məzmunu baxımından digər bayramlardan seçilir. Bu üstün cəhət nəzərə alınaraq, bahar bayramına daha çox yer ayrılması təsadüfi olmayıb, qanunauyğundur. Əsərdə xalqımızın əziz bayramlarından Qurban bayramı, Orucluq bayramı və digər bayramlar haqqında da məlumat verilir.

Xalqımızı birliyə, həmrəyliyə, köməyə və arxa durmağa səsləyən qarşılıqlı yardım formalarından, demək olar ki, həyatımızın bütün sahələrində geniş istifadə edilir. Lakin etnoqrafik baxımdan yanaşdıqda, qarşılıqlı yardım formaları daha çox təsərrüfatda, yaşayış məskənləri və yaşayış evlərində, müxtəlif sənətkarlıq sahələrində, ailə-məişət məsələlərində geniş tətbiq edilir.

Xalqımız vətənə sonsuz məhəbbət, torpağa bağlılıq, el-obaya saygı, sevgi və ailəyə yüksək qayğısı ilə tanınır. Bu bəşəri keyfiyyətlər arasında ağsaqqallıq və ağbirçəklik institutu böyük məna və məzmun kəsb edir. Bu institut ibtidai icma quruluşundan başlayaraq, zəmanəmizə qədər davam edir. Təlim-tərbiyə məktəbi, gör-götür dünyası, ibrətamizlik abidəsi olduğuna görə, bu məsələyə də cilddə xüsusi yer ayrılması təbiidir.

Geniş qəlbliliyi, sadəliyi və səmimiliyilə tanınan Azərbaycan xalqı dünyada öz qonaqpərvərliyi ilə də sayılır və seçilir. İbrətamizliklə dolu bu xalq adətində qonağa dərin hörmət və ehtiram bütün çalarları ilə özünü büruzə verir. Əsərdə qonaqpərvərliyin ilkin çağları, inkişaf mərhələləri zəngin materiallar əsasında şərh edilir. Eyni zamanda, rəqs və rəqqaslar, nəfəsli, simli və zərb musiqi alətləri tədqiq edilir. Onların quruluşu və hazırlanma üsulları açıqlanır. Əsərdə xalqımızın musiqi dünyasına geniş yer verilməsi tamamilə qanunidir. Musiqi xalqımızın təbiətindən doğur, insanlara ümumbəşəri hisslər aşılayır, onları haqqa, ədalətə, eşqə, məhəbbətə, ülviliyə, təmizliyə və paklığa səsləyir. Azərbaycan xalqı tarixdə musiqili, şairli-şeirli xalq kimi tanınır və sevilir. Yüksək mənəvi zənginliyi ilə seçilən xalqımızı dünya xalqları sazlı-sözlü, min bir avazlı, Nizamili, Nəsimili, Füzulili, Vaqifli, Ələsgərli, Üzeyirli, Vurğunlu, Şəhriyarlı, Qaralı və Fikrətli xalq kimi tanıyır. Musiqi ilə şerimizdəki bu qoşalıq, bu doğmalıq sözümüzdə, musiqili səsimizdə və dilimizdədir.

Tərbiyə beşik nəğməsi, ana laylasıdı, süddə gələr, sümüklə çıxar. Qandan qana, candan cana keçər. Təlim insanın həyatda arzu və istəyinə nail olmaq üçün məqsədyönlü formalaşması prosesidir. Təhsil insanın, cəmiyyətin, dövlətin inkişafına xidmət edən strateji əhəmiyyətli fəaliyyət sahəsidir. Sistemləşdirilmiş bilik, bacarıq, vərdiş və təlim prosesi onun nəticəsidir. Təhsil milli zəminə, bəşəri dəyərlərə əsaslanır və dünyəvi xarakter daşıyır.

Elm idrakın bir forması olmaqla təbiətin öyrənilməsi, cəmiyyətin və təfəkkürün inkişafı üçün yaradılan biliklər sistemidir. Elmin vəzifəsi insanlara təbiət, cəmiyyət haqqında dəqiq, dürüst biliklər aşılamaq, onlarda elmi dünyagörüşü formalaşdırmaq və hərtərəfli kamil inkişaf etmiş şəxsiyyət yetişdirməkdir. Cilddə təhsil və elm haqqında da yığcam məlumat verilmişdir".

Akademik Teymur Bünyadov milli-mənəvi mədəniyyətimizin tərkibində:

- Azərbaycan ədəbiyyatının;
- Xalq təqviminin;
- Xalq Təbabətinin;
- Dini görüşlərin;
- İnamların və s. də əsas sınamaların, əyləncələrin, sayların və s. yer tutduğu qeyd edir.

T.Bünyadov gələcək alim-tədqiqatçılara üzünü tutaraq ağsaqqal xeyir-duası verir:

"Mənəvi mədəniyyət son əsrlərdə sivilizasiyanın, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq etnik mənsubiyyətin əsas göstəricisi kimi çıxış etməkdədir və XIX əsr mədəniyyətlərin mübarizəsi əsri kimi özünü göstərdiyinə görə, Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsi və təbliği, eyni zamanda, gələcək nəslə çatdırılması qarşıya əsas məqsəd kimi qoyulmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının çoxəsrlik, çoxsahəli və zəngin mənəvi mədəniyyəti etnoqraf alimlərimiz tərəfindən yetərincə və tələb olunan səviyyədə araşdırılmamışdır. Bu baxımdan, oxuculara təqdim edilən üçüncü cildin işıq üzü görməsi problemin əhəmiyyətini artırır, dərin məna və məzmunu ilə diqqəti cəlb edir. Əlbəttə, xatırlatmaq lazımdır ki, bu zəngin və tükənməz irsin bütün sahələrini eyni dərəcədə işıqlandırmaq imkan xaricindədir və qeyri-mümkündür. Bu, hər şeydən əvvəl, çöl-etnoqrafik materiallarının və tədqiqat əsərlərinin nisbətən azlığından, tam olmamasından, müqayisəli metoddan istifadə edilməməsindən irəli gəlir. Ona görə də, Azərbaycan dilində ilk dəfə olaraq, belə əhatəli şəkildə fundamental əsərin ərsəyə gətirilməsində bəzi çatışmayan cəhətlərə, zəif məqamlara, iradlara və xırda nöqsanlara da rast gəlmək mümkündür. Bütün bunlara baxmayaraq, bu kitabdan oxucuların Azərbaycan xalqının mənəviyyatı haqqında dolğun, tam məlumat alacaqlarına əminlik hasil etmək olar."

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 noyabr

## *Virtual reallıq insultdan sonra bərpa olunmağa kömək edir*



Almaniyanın Bergen Universitetinin alimləri insult keçirmiş pasiyentlərin bərpa olunmasının innovativ metodikasını işləyib hazırlayıblar. AZƏRTAC “vista-news.ru” saytına istinadla xəbər verir ki, bu metodikanın səmərəliliyi 120 könüllünün iştirakı ilə keçirilən tədqiqatlar zamanı təsdiq edilib. Əvvəlcə respondentləri iki qrupa ayırıblar. Pasiyentlərin bir hissəsi standart üsullarla, digər hissəsi virtual reallıq texnologiyalarının köməyi ilə müalicə olunublar. Tədqiqatların yekunları göstərib ki, hər iki qrupdakı könüllülərin nəticələri, demək olar, identikdir. Həkimlərin sözlərinə görə, bu metodika insult zamanı atrofiyalaşmış ətrafların funksiyalarının bərpa olunmasına kömək edir. Alimlər bu sahədə daha dərin tədqiqatlar aparmaq niyyətindədirlər.

## *Alimlər hansı yuxunun daha faydalı olduğunu açıqlayıblar*



Kaliforniya Universitetinin alimləri yuxunun hansı dövrünün sağlamlıq üçün daha faydalı olduğunu aydınlaşdırıblar. Tədqiqatçıların fikrincə, yuxunun “qısamüddətli” adlandırılan sonuncu fazası stresin öhdəsindən gəlməkdə insana kömək edir.

AZƏRTAC “Apral” saytına istinadla xəbər verir ki, mütəxəssislər öz nəzəriyyələrini təsdiq etmək üçün əməli təcrübə aparıblar. Könüllüləri qısamüddətli yuxuya verərək, - adətən bu zaman insan yuxu görür, - onları mümkün qədər çox bu vəziyyətdə saxlayıblar. Nəticədə məlum olub ki, respondentlərin qorxu hissi ilə bağlı olan beyin fəallığı yavaşıyıb. Uzun müddət qısamüddətli yuxuda olanlar özlərini inamlı hiss ediblər, posttravmatik emosional pozğunluğun və gərginlik hissinin öhdəsindən asanlıqla gəliblər.

Daha əvvəl bir qrup ABŞ alimi nə vaxt yatmağın daha faydalı olduğunu müəyyən edib. Tədqiqatçıların fikrincə, gündüz yuxusu gücü sürətlə bərpa etməyə, diqqəti müəyyən məsələ üzərində cəmləşdirmək üçün lüzumsuz fikirlərdən uzaqlaşmağa imkan verir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Qədirli Aytac Qədir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız saylır.

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat fakültəsinin sənayenin təşkili və idarə olunması ixtisasının IV kurs tələbəsi Rzayev Məhəmməd Bayram oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Əliyeva Günəştəkin Heydər qızına DƏDRX tərəfindən verilmiş 004013005609 nömrəli 17.02.2015-ci il tarixli çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

ADNSU-nun İctimai fənlər kafedrasının əməkdaşları kafedranın dosenti İbadət İbrahimova qardaşı

VİDADİ İBRAHİMOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

“SƏS” Media Qrupunun kollektivi adından Bəhruz Quliyev Elgün Vidadioğluya nənəsi

İLDUZƏ xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## “Beşiktaş” Çempionlar Liqasının səkkizdəbir finalında!



İstanbulun “Beşiktaş” klubu tarixində ilk dəfə UEFA Çempionlar Liqasının səkkizdəbir finalına yüksəlib. Belə ki, Avropanın ən nüfuzlu klub turnirinin qrup mərhələsində keçirdiyi beşinci matçda doğma meydanda “Portu” ilə 1:1 hesabı ilə heç-heçə edən istanbullular xallarının sayını 11-ə çatdıraraq “G” qrupunda liderliklərini rəsmiləşdiriblər. Matçın 29-cu dəqiqəsində “Portu” Felipenin qolu ilə hesabda irəli çıxıb. Lakin ilk hissənin sonuna yaxın “Beşiktaş”ın heyətində Taliska hesabı bərabərləşdirib - 1:1. Beləliklə, qrupda üç qələbə və iki heç-heçə edən “Beşiktaş” UEFA Çempionlar Liqasında öz qrupunda lider olan ilk türk klubu adını qazanıb. İstanbul təmsilçisi qrup mərhələsinin sonuncu turunda səfərdə “Leypsiq” komandasının qonağı olacaq. “E” qrupunun ilk qarşılaşmasında isə Rusiyanın “Spartak” klubu doğma meydanda Slovniyanın “Maribor” komandası ilə 1-1 hesablı heç-heçə edib.

Qrupun digər qarşılaşmasında Fransada “Monako” və “Leyptsiq” klubları üz-üzə gəliblər. Görüş Almaniya təmsilçisinin 1:4 hesablı qələbəsi ilə başa çatıb. “E” qrupunun ilk qarşılaşmasında isə Rusiyanın “Spartak” klubu doğma meydanda Sloveniyanın “Maribor” komandası ilə 1:1 hesablı heç-heçə edib. “Sevilya” isə İspaniyada İngiltərənin “Liverpul” klubu ilə heç-heçə edib - 3:3.

İtaliyanın “Napoli” və Ukraynanın “Şaxtyor” klublarının qarşılaşması isə “F” qrupunun maraqla gözlənilən oyunu idi. Qarşılaşma İtaliya təmsilçisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Bu qrupda oynanılan digər qarşılaşmada Hollandiyada təmsilçisi “Feyenoord” səfərdə İngiltərənin “Mançester Siti” klubunun qonağı olub. Qarşılaşma İngiltərə təmsilçisinin minimal hesablı üstünlüyü ilə başa çatıb - 0:1 “H” qrupunda İspaniyanın “Real Madrid” klubu isə səfərdə Kiprin “APOEL” komandasının qapısından 6 cavabsız top keçirib. Almaniya təmsilçisi “Borussiya” öz meydanında İngiltərənin “Tottenhem” klubuna məğlub olub - 1:2.

## “Neftçi”nin rəhbərliyi “Çelsi”nin baş məşqçisi ilə görüşüb



Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində “Qarabağ” ilə qarşılacaq “Çelsi” klubu “Bakcell Arena”da məşq keçib. “Neftçi” futbol klubunun prezidenti Orxan Hüseynzadə və vitse-prezident Elnur Eyvazov “Bakcell Arena”da qonaq olan London klubunun katibi Devid Bernard və baş məşqçi Antonio Konte ilə görüşüblər. Klub rəsmiləri akademiyalar arasında əməkdaşlıq perspektivləri haqda fikir mübadiləsi aparıblar. Ölkəmizin ən qocaman klubunda uşaq futbolunun inkişafına xüsusi əhəmiyyət verildiyini qonaqların nəzərinə çatdıran Orxan Hüseynzadə “Neftçi” Futbol Akademiyasının istedadlı yetirmələrinin “Çelsi”də təcrübə toplaması üçün İngiltərə təmsilçisinin nümayəndələrinə təklif irəli sürüb. Devid Bernard prezidentin təklifini müsbət dəyərləndirərək bu cür əməkdaşlığın faydalı olacağını vurğulayıb.

“Neftçi”nin vitse-prezidenti Elnur Eyvazov dünya şöhrətli klubu qonaq etməkdən məmnunluğunu bildirib. Qonaqpərvərliyə görə təşəkkür edən Antonio Konte “Bakcell Arena”dakı məşqin təşkilindən razı qaldıqlarını söyləyib. Görüşün sonunda tərəflər bir-birinə xatirə hədiyyələri təqdim ediblər.

## “Lokomotiv” Kiprin “Apoel” klubuna qalib gəlib

Bakının kişi voleybolçulardan ibarət “Lokomotiv” klubunun avrokubokdakı debütü uğurlu olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan çempionu “Çağırış kuboku” turnirinin ikinci təsnifat mərhələsində ilk matçını noyabrın 21-də keçirib. Azərbaycan Voleybol Mərkəzində Kiprin “Apoel” klubunu qəbul edən komandamız rəqibinə 3:0 hesabı ilə qalib gəlib. Komandalar arasındakı cavab oyunu noyabrın 29-da olacaq.

CEV


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**